**Ruhulla Zahidov**

# Gəncə Zəfər Günündə

**(Yubiley nəşri)**

**Gəncə - 2025**

**Tərtib etdi: Ruhulla Zahidov**

**Redaktor: İnqilab Şirinli, Teleaparıcı, AJB-nin və Beynəlxalq Jurnalistlər Federasiyasının üzvü**

**Korrektor: Nərmin Zahidova**

**Ruhulla Əsgər oğlu Zahidov, "Gəncə Zəfər Günündə". Gəncə, 2025, 154 səh.**

***Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacadır. Bu 44 günün hər günü bizim şanlı tariximizdir.***

***Azərbaycanın hər bir bölgəsində olduğu kimi Gəncə şəhəri də Zəfər gününü böyük sevinc və təntənə ilə qeyd edir.***

***Bu kitab xalqımızın 44 günlük Qarabağ savaşında əldə etdiyi qələbənin 5 illiyinə həsr olunub.***

***Kitab az tirajla çap edilsə də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.***

**Gəncə - 2025**

# Azərbaycan Xalqı tarixi Qələbəsini öz müdrik rəhbərinin başçılığı ilə qazandı

Azərbaycanın İkinci Qarabağ, 44 günlük Vətən müharibəsi zamanı möhtəşəm qələbə qazanması, uzun illərdən bəri Ermənistanın işğalı altında olan tarixi torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpa edilməsi, heç şübhəsiz, xalqımızın çoxəsirlik dövlətçilik tarixinin ən şərəfli səhifələrindən biridir. Həmçinin bu qələbə qonşusunun torpağına göz dikən, xalqımızın humanistliyindən, qonaqpərvərliyindən, etimadından, etibarından sui-istifadə edən ermənilərin iç üzünü, əsl simasını dünyaya bir daha göstərdi. Hər kəs gördü ki, ermənilər yalan iddialarla bəşəriyyətə fəlakət və bəla gətirən faşist ideologiyasını utanıb çəkinmədən həyata keçirirlər. Bir daha dünyaya məlum oldu ki, tarix boyu ermənilər azərbaycanlılara və türklərə qarşı amansız olmuş, insanlığa sığmayan terror aktları, dəhşətli soyqırımları törətmişlər. Bu millətin mayası sanki qəddarlıqdan tutulmuşdur. Ağsaqqala, ağbirçəyə, azyaşlı uşaqlara belə rəhm etməyən ermənilərin törətdikləri vandal aktları alman faşizmini də kölgədə qoymuşdur.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad edilməsi, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müddət ərzində Azərbaycan xalqı ilə yanaşı, bütün dünya ermənilərin nə qədər vandal, vəhşi xislətə malik olduqlarının bir daha şahidi oldu. Döyüş meydanında ağır məğlubiyyətlərlə üzləşən Ermənistan ordumuzun hər yeni uğuruna yalnız bir o

qədər aciz, azğın və namərd şəkildə reaksiya verirdi. Ermənistan ordusu dəfələrlə döyüş meydanından uzaq olan, hərbi obyektlərin olmadığı və mülki vətəndaşların məskunlaşdığı Azərbaycan torpaqlarını hədəf alaraq raket və mərmilər vasitəsilə kütləvi itkilərə səbəb olan terror aktları törətdi. Üstəlik bu hadisələrin qadağan olunmuş silahlar vasitəsilə həyata keçirilməsi düşmənin azğınlığını iki qat artırırdı.

Yaşanan dəhşətli hadisələr bütün dünyanı sarsıtsa da, xalqımız döyüş ruhunu, birliyini və iradəsini itirməyərək daha da əzmlə və mərdcəsinə Ali Baş Komandanı və ordumuzu dəstəkləməyə davam etdi. Həyatını itirmiş mülki həmvətənlərimizin qisasını isə rəşadətli ordumuz döyüş meydanında müvəffəqiyyətlə aldı. Müasir texnologiyalara yiyələnən, son nəsil silahlara sahib olan Azərbaycan Ordusu tarixi, əzəli torpaqlarımızı işğaldan azad etmək uğrunda beynəlxalq hüquq çərçivəsində legitim döyüşlər apardı və Böyük Zəfərimizi xalqımızın tarixinə həkk etdi. Azərbaycan sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsini hərbi-siyasi yolla 44 günə bitirdi.

Müzəffər Azərbaycan ordusu qarşısında tab gətirməyərək ağır məğlubiyyətə uğrayan işğalçı Ermənistanla aparılan müharibə ərzində əsgər və zabitlərimizin rəşadəti, şəhidlərimizin qanı ilə düşmənin uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemləri, məğlubedilməzlik mifləri cəsarətlə dağıdılaraq 2020-ci ilin 3 oktyabr tarixində Suqovuşanın azad edilərək tarixi adına qovuşması, 4 oktyabrda Cəbrayıl rayonu, 9 oktyabrda Hadrut qəsəbəsi, 17 oktyabrda Füzuli rayonu, 20 oktyabrda Zəngilan rayonu, 25 oktyabrda Qubadlı rayonu və 8 noyabrda Şuşa şəhəri işğaldan

azad edilməklə müharbənin taleyi əsasən həll olunmuşdur. Ümumilikdə döyüş əməliyyatları nəticəsində müzəffər Azərbaycan Ordusu tərəfindən 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri hərbi yolla işğaldan azad edilmişdir. Bununla yanaşı düşmənin məğlubiyyəti ilə Moskvada imzalanan tarixi Bəyanata əsasən, noyabrın 10-u Bakı vaxtı ilə saat 01:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və hərbi əməliyyatlar tam dayandırılmış, 1 dekabradək Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistan nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi elan edilmişdir.

Beləliklə dövlətçiliyimizin ən şərəfli səhifəsinə qızıl hərflərlə yazılan bu Zəfərlə Azərbaycan, faşist ideologiyasından bəhrələnən Ermənistanın 30 illik işğalına son qoyaraq, bir güllə atmadan, bir şəhid vermədən belə 2020-ci il noyabrın 20-də Ağdam rayonunu, noyabrın 25-də Kəlbəcər rayonunu dekabrın 1-də isə Laçın rayonunu işğaldan azad edərək dünyada qalib xalq, məğlubedilməz dövlət kimi özünü bir daha təsdiqlədi.

O da qeyd olunmalıdır ki, hər zaman olduğu kimi Vətən müharibəsinin ilk günündən də ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşən laçınlılarda hərbi əməliyyatlarda yaxından iştirak etmişlər. Vətən müharibəsində iştirak edən 263 nəfər laçınlıdan 14 nəfəri hərbi, 4-ü isə mülki şəxs olmaqla 18 nəfəri qəhrəmancasına şəhid olmuş, 74 nəfər isə müxtəlif bədən

xəsarətləri almaqla qazı adına layiq görülmüşdür. Həmçinin, İkinci Qarabağ Vətən müharibəsində iştirak etmiş laçınlı döyüşçülərdən hərbi əməliyyatlar zamanı xüsusi sücayət göstərmiş 146 nəfəri ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə müxtəlif orden və medallarla təltif edilmişdir.

Əlbətdə ölkəmizin bu tarixi nailiyyəti təsadüfi xarakter daşımır və ötən müddət ərzində həm ordu quruculuğu sahəsində, həm diplomatiya cəbhəsində görülən işlərin, eyni zamanda beynəlxalq informasiya müstəvisində Azərbaycan reallıqlarının sistemli və məqsədyönlü şəkildə təbliğinin nəticəsidir. O da xüsusilə vurğulanmalıdır ki, Azərbaycanın bu qürurverici və əzəmətli qələbəsinin müəllifi xalqımızın ulu öndəri Heydər Əliyevin layiqli davamçısı ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevdir.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı hərb tariximizə daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə dövlət başçısı cənab İlham Əliyevin qərarı ilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək.

Bəli 2020-ci ilin 8 noyabr tarixi - Şuşanın işğaldan azad edildiyi gün bütün Azərbaycan xalqı üçün Zəfər günü kimi günü yadda qaldı. 44 günlük Vətən müharibəsi Ali Baş

Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı. 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq...

30 illik münaqişəni 44 günə sona çatdıran bu qısa müharibə dünya hərb tarixinə də misli görünməmiş savaş kimi düşdü. Azərbaycan Ordusunun gücünü, Azərbaycan xalqının qüdrətini bəşəriyyətə sübut etdi. Ona görə 44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaqdır.“Qarabağ bizimdir!”,

“Qarabağ Azərbaycandır!”

# 8 Noyabr - Zəfər Günü




## Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

03 dekabr 2020, 14:01

XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.
Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik

Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin

dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə qərara alıram:

1. Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 3 dekabr 2020-ci il.**

# Yenilməz qələbə əzmi və tarixi qələbə




1990-cı illərdən başlayaraq Ermənistanın Azərbaycana olan ərazi iddiaları keçmiş Sovetlər birliyinin tərkibində olan iki respublikanın - Ermənistan və Azərbaycanın arasında 30 ildən çox bir məsafədə davam edən qanlı müharibəyə səbəb oldu. Bu illər ərzində xalqımız minlərlə oğul və qızını şəhid verdi. Torpaqlarımızın 20 faizi işğal olundu. Şəhər və kəndlərimiz viran qoyularaq, yer üzündən silindi. Lakin bu illər ərzində xalqımızın qələbəyə olan inamı bir an olsa belə sarsılmadı, addım-addım, qarış-qarış torpaqlarımız iş ğaldan azad edildi. Ermənistanın 2020-ci il sentyabrın 27-də ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələri Müzəffər Ali Baş

Komandanın rəhbərliyi altında torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə Vətən müharibəsinə başladı. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti Vətən müharibəsində qəhrəmancasına və şücaətlə döyüşərək, Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr endirib, illər ərzində Ermənistanın işğalı altında olan torpaqlarımızda qurduğu mürəkkəb konstruksiyalı mühəndis-istehkam sistemlərini darmadağın edib, bir neçə eşelondan ibarət və sıx şəkildə minalanmış müdafiə xətlərini yararaq, torpaqlarımızı işğaldan azad etdi. Rəşadətli və qorxmaz əsgər və zabitlərimiz əksər strateji yüksəkliklərin, əlverişli döyüş mövqelərinin Ermənistan silahlı qüvvələrinin əlində olmasına baxmayaraq, düşmənin çoxsaylı artilleriya, yaylım atəşli reaktiv sistemləri və minaatan qurğularından ibarət sıx atəş zərbələri altında və çətin coğrafi relyef və iqlim şəraitində döyüş apararaq, Ermənistanı məğlub etməyə müvəffəq oldu. Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi isə dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan biri olmaqla, tariximizə qızıl hərflərlə yazıldı. Bununla da otuz ilə yaxın həsrətində olduğumuz torpaqlarımız şəhidlərimizin qanı və canı bahasına işğaldan azad edildi. Döyüş əməliyyatı planlarının yüksək peşəkarlıqla hazırlanması, yüksək texnologiyaların tətbiqi, müxtəlif qoşun növlərinin fəaliyyətinin səmərəli əlaqələndirilməsi, havada mütləq üstünlüyün əldə edilməsi, ordumuzun manevr qabiliyyəti, digər taktiki və strateji üstünlükləri Vətən müharibəsində qələbəmizi təmin edən amillərdən oldu. Amma heç bir müharibə itkisiz ötüşmür. Bu mübarizədə qəhrəman ordumuzun itkiləri də az olmadı. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimizin ruhu qarşısında baş əyirik!..

Ordu ilə birlik nümayiş etdirən Azərbaycan xalqı da bu qələbənin qazanılmasında əsas pay sahibidir. Məhz xalq-dövlət-ordu birliyi bu qələbənin qazanılmasında əsas rol oynamışdır. Xalqımız Vətən müharibəsi dövründə bir yumruq halında birləşdi. Rəşadətli Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasəti və qətiyyəti, həmçinin, xalqımızın dəstəyi nəticəsində tarixi zəfərə imza atdı. Həm hərbi qulluqçularımız, həm də könüllü döyüşlərə yollanan igid oğullarımız böyük qəhrəmanlıq nümayiş etdirərək, düşmən üzərində tarixi qələbə qazandı. Müharibənin getdiyi 44 gün ərzində xalq cənab prezidentin ətrafında dəmir yumruq halında birləşib, dövlətə və orduya sədaqət, güclü birlik və həmrəylik nümayiş etdirdi. BirliyimizMilli Ordumuzu daha da gücləndirdi. Xalqımızın vətənpərvərlik hissi, yenilməz döyüş ruhu rəşadətli ordumuza qısa bir müddət ərzində düşmən üzərində qələbəni təmin etdi. Bu xoşbəxtliyi, bu qüruru bizə Ali Baş Komandan İlham Əliyev və rəşadətli Azərbaycan Ordusu yaşatdı. Bu müharibə Azərbaycan xalqının, onun liderinin, şanlı ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. 30 ilə yaxın müddətdə səbr göstərən xalqımız nəhayət qələbəyə çatdı. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan, Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. Bununla da regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Bu müjdə Azərbaycan xalqı tərəfindən böyük coşqu ilə qarşılandı. Bu qələbəmizi son illər ərzində ölkəmizdə aparılan inkişaf siyasəti, mövcud olan gözəl ab-hava, xalq-iqtidar birliyi,siyasi münasibətlərin müsbət səviyyəyə qalxması, beynəlxalq nüfuzumuz, beynəlxalq arenadakı fəaliyyətimiz, ordu

quruculuğu təbii ki, şərtləndirmişdir. Prezident-xalq-ordu birliyi nəticəsində döyüş meydanında olduğu kimi, arxa cəbhədə də qəhrəmanlıq dolu tariximiz yazıldı. Bu, Azərbaycan tarixinin daha bir şanlı səhifəsidir.

Ordumuzun işğalçı erməni ordusuna qarşı apardığı bu 44 günlük müharibə milli şüurun, xalq və ordu birliyinin təcəssümünə çevrildi. O günlərdə hər kəs Vətən fədaisi oldu.Vətənimizin hər bir bölgəsində xalqımıza məxsus olan milli qürur, əyilməzlik kimi keyfiyyətlər özünü ən yüksək səviyyədə biruzə verdi. Xalqımızın minlərlə igid oğlu döyüşən orduya könüllü olaraq yazıldı, onların çoxu əzəli torpaqlarımız uğrunda gedən döyüşlərdə mətinlik, cəsarət və əsgəri rəşadət göstərərək, adını tarixə yazdı. Xalqımız öz cəsarəti və igidliyi ilə Vətən torpağını azad edən bu oğulların fəaliyyətini yüksək qiymətləndirir.

Həmin günlərdə xalqımız Ali Baş Komandanın ətrafında sıx birləşərək, uzun illərdən sonra doğma torpaqlarımızda yenidən üçrəngli şanlı bayrağımızın ucaldılmasında, mənfur düşmən ilə aparılan müharibənin Azərbaycan Ordusunun, Xalqımızın zəfəri ilə başa çatmasında özünəməxsus rol oynadı.

## Tariximizə qızıl hərflərlə yazılan qələbə

1994-cü ildən aparılan sülh danışıqları nəticə verməmişdi, 1994–2020-ci illərdə ara-sıra Dağlıq Qarabağ təmas xəttində və Azərbaycan-Ermənistan sərhəddində silahlı toqquşmalar baş verirdi.2020-ci ilin sentyabr -noyabr aylarında Azərbaycan Silahlı Qüvvələrinin başladığı hərbi əməliyyatlar nəticəsində 26 ildən çox dondurulmuş olan münaqişə yenidən alovlandı. 44 gün ərzində Azərbaycan Ordusu torpqlarımızı işğaldan azad elədi. Hərbi əməliyyatlar 10 noyabr 2020-ci ildə Azərbaycan,

Ermənistan və Rusiya liderləri arasında imzalanan bəyanatla başa çatdı.

Bununla belə müharibədən sonra Azərbaycan-Ermənistan sərhəddində böhran başladı. 2021-ci ildə Azərbaycan və Ermənistanda sərhəd delimitasiyası üzrə işçi qruplar yaradıldı. Danışıqlar böhran və bölgədə ara-sıra baş verən silahlı toqquşmalarla müşahidə olundu. 2021-ci ilin noyabrında sərhəddə birinci silahlı toqquşmalar baş verdi. Müharibədən sonra əl qanlı toqquşma 2022-ci ilin sentyabrında sərhəddə baş vermişdir və bu toqquşma ümumi olaraq həm Azərbaycan, həm də Ermənistan tərəfdən 300-dən çox insanın ölümünə səbəb oldu. 2023-cü ildə isə tərəflər əvvəlcə martda Şuşa istiqamətində, sonra isə apreldə və mayda sərhəd istiqamətində toqquşdu.

2023-cü il aprelin 23-də Azərbaycanın Dövlət Sərhəd Xidməti 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə və Ermənistan tərəfindən 22 aprel tarixində birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın-Xankəndi yolunun girişində nəzarət buraxılış məntəqəsinin qurulmasına cavab olaraq aprelin 23-ü saat 12:00-da Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Azərbaycanın suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında "Laçın" Nəzarət-Buraxılış Məntəqəsinin quruldüğunu bildirdi.

19 sentyabr 2023-cü ildə, səhər saatlarında Qarabağda Azərbaycan silahlı qüvvələri və erməni silahlı birləşmələri arasında silahlı toqquşma başladı. Münaqişə Azərbaycan silahlı

qüvvələrinin Rusiya Sülhməramlı Kontingentinin 10 noyabr 2020-ci il tarixli bəyanatına əsasən yerləşdirildiyi ərazilərdə aparılırdı. Azərbaycanın Müdafiə Nazirliyinin Anti-terror əməliyyatı adı verdiyi silahlı toqquşmadan bir neçə saat əvvəl Xocavənd rayonu ərazisində mina partlayışları oldu vənəticədəDaxili İşlər Nazirliyinin polisləri də daxil olmaqla 9 nəfər həyatını itirdi. Ermənistan rəsmiləri bunu Azərbaycanın ermənilərə qarşı təcavüzü adlandırdı.

24 saat davam edən hərbi əməliyyatlar sentyabrın 20-də, saat 13:00-da əldə olunan razılığa əsasən dayandırıldı. Razılığa əsasən Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən və hərbi postlardan çıxmalı, Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərindən çıxmalı, qeyri-qanuni erməni silahlı dəstələri buraxılmalı, paralel formada bütün silah-sursat təhvil verilməli və bütün bu proseslər Rusiya Sülhməramlı Kontingenti iləəlaqələndirilmiş formada aparılması təmin edilməli idi. Həmçinin sentyabrın 21-də Qarabağın erməni əhalisinin nümayəndələri ilə Yevlaxda görüşün baş tutacağı da qeyd edildi.

Hərbi əməliyyatlar zamanı regionda 400-dən çox şəxs həyatını itirdi. Rəsmi olaraq Azərbaycan Silahlı Qüvvələrinin 202 hərbi qulluqçusu həyatını itirdi, 511 hərbi qulluqçusu isə yaralandı. Erməni silahlı dəstələrinin ölüləri barədə dəqiq say açıqlanmasada, erməni tərəfi sonradan 200-dən çox hərbçisinin öldüyünü bildirdi. Hərbi əməliyyatlar zamanı həm Azərbaycan, həm də Ermənistan tərəfdən dinc insanlarda həyatını itirdi.

Artıq tarixi qələbə qazanılıb. Həmin çətin, eyni zamanda şərəfli tariximizin davamı olan o qanlı - qadalı günlər arxada

qalmışdır. Bu qələbə nəinki ölkəmizin beynəlxalq nüfuzunu daha da yüksəltdi, həmçinin, bu günki və gələcək nəsillərin qürur mənbəyinə çevrildi.

Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir. Azərbaycan xalqı bundan sonra da öz liderinə böyük etimad göstərərək, yumruq kimi Azərbaycan Prezidentinin ətrafında birləşəcək, Vətən müharibəsində qazandığımız qələbə Azərbaycan tarixində əbədi qalacaqdır.

Sentyabrın 27-dən başlayaraq Laçın dövlət sərhədindən buraxılış məntəqəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən Azərbaycan ərazisinə qeyri-qanuni gələn qondarma separatçıların həbsinə başnanıldı. Həbs edilənlər sırasında qondarma “Dağlıq Qarabağın Dövlət naziri" vəzifəsində çalışmış 1968-ci il təvəllüdlü Ruben Karloviç Vardanyan, qondarma “Dağlıq Qarabağın Müdafiə Ordusu Komandanının birinci müavini”, Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu, general-mayor ali hərbi rütbəsində xidmət edən 1971-ci il təvəllüdlü Davit Manukyan və qondarma “Dağlıq Qarabağın müdafiə naziri" vəzifəsində çalışmış 1965-ci il təvəllüdlü Lyova Henrix Mnatsakyan idilər. Onlar barəsində Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq İdarəsi tərəfindən Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə, əsasən 214-1, 214.2.1, 214.2.2, 214.2.3, 228.3, 279.3 və 318.1-ci maddələrlə cinayət işi açılmış və barələrində həbs tədbirləri seçilmişdir.

Bu gün dəAzərbaycanın Qarabağ ərazisində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələrinin törətdikləri sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayətlərin araşdırılması ilə bağlı

başlanmış cinayət işləri üzrə Azərbaycan Baş Prokurorluğu və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks tədbirlər həyata keçirilir.

Erməni qatillərinin başçılarının Azərbaycanın Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən tutularaq, Bakıya gətirilməsi bütün Azərbaycan xalqı tərəfindən alqışlarla qarşılandı. Onlar Bakıda müttəhimlər kürsüsünə əyləşəcək hərbi canilərin siyahısında yer alan Xocalı qatilləridir.Azərbaycan xalqı tarixi günlərini yaşayır. Hazırda üçrəngli bayrağımız Qarabağın hər bucağında dalğalanır. Qondarma "dqr"in keçmiş separatçı rəhbərləri isə Bakıda dindirilir. Bunun ardı gələcək. Hələlik səkkiz separatçı-terrorçu Dövlət Təhlükəsizlik Xidməti tərəfindən saxlanılıb.Bunlar Qarabağdakı separatçıların keçmiş "prezident"ləri Arkadi Qukasyan (1997-2007), Bako Saakyan (2007-2020), Araik Arutyunyan (2020-2023), "Daşnakasutyun"partiyasının "Qarabağ təmsilçisi" və separatçı rejimin keçmiş parlament sədri David İşxanyan, habelə kifayət qədər cinayət törətmiş Ruben Vardanyan, Davit Babayan, Lyova Mnatsakanyan və Vaqif Xaçaturyandır. Onlar törətdikləri cinayət əməllərinə görə barələrində aparılan cinayət işləri üzrə Azərbaycan Respublikası DTX tərəfindən saxlanılaraq Bakıya gətirilib. Qeyd edək ki, onların Azərbaycan ərazisində təcavüzkar müharibənin aparılmasında iştirak etməsi, muzdluların yığılması, onlara təlim keçirilməsi və maliyyələşdirilməsi, həmçinin onlardan hərbi münaqişədə və hərbi əməliyyatlarda istifadə edilməsinin təşkil olunması, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının pozulması, silahlı münaqişə dövründə

cinayətkar əmrlər verməsi xalqımızın hədsiz nifrətinə səbəb olmuşdu.

Onu da qeyd etmək yerinə düşərdi ki, Arayik Arutyunyanın Azərbaycan qanunvericiliyində nəzərdə tutulmayan silahlı birləşmələrin formalaşdırılmasında, bu fəaliyyətinin təşkilinə, cinayətkar birlik halında həmin birləşmələrin silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchizində, bunlardan istifadə hazırlığı üzrə təlimlərin təşkil edilməsində, eləcə də qaçaqmalçılıq yolu ilə ölkəmizə gətirilməsində və terrorçuluğun maliyyələşdirilməsində böyük rolu olmuşdur.

İstintaq-əməliyyat tədbirləri nəticəsində, həmçinin, Arayik Arutyunyan tərəfindən terror aktlarının törədilməsi məqsədilə Azərbaycan ərazilərinin davamlı şəkildə minalanması, cəbhə zonasından kənarda yerləşən, əhalinin sıx məskunlaşdığı Azərbaycanın Gəncə şəhəri və Bərdə rayonunun yaşayış məntəqələri və mülki obyektlərini hədəfə alaraq ballistik və digər növ raketlər atılmaqla çoxsaylı mülki şəxslərin öldürülməsi və onlara müxtəlif dərəcəli bədən xəsarətlərinin yetirilməsi, mülki və hərbi infrastruktura ağır nəticələrə səbəb olan ziyan vurulması ilə nəticələnən terror hücumlarının təşkil olunması və digər çoxsaylı cinayətlər törədilməsinə əsaslı şübhələr müəyyən edilmiş və o 2020-ci il oktyabrın 28-də Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, barəsində məhkəmənin qərarı əsasında həbs qəti imkan tədbiri seçilərək beynəlxalq axtarışa verilmişdi.

Bu gün onlar öz layiqli cəzalarına çatacaqlar.

# Şəhid ailələrinə və qazilərə qayğı dövlət siyasətinin prioritetidir

**Prezident İlham ƏLİYEV: "Bütün şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq".**

Bəli, bu gün hər bir dövlət və cəmiyyət üçün hərbi əməliyyatlarda iştirak edən şəxslərin müharibələrdən sonra mövcud durumu, şəhid və qazi ailələrinin sosial-psixoloji vəziyyəti önəmlidir. Bu kimi çağırışların öhdəsindən, məhz sözün əsl mənasında, bütün parametrlərinə görə sosial dövlət kriteriyalarına cavab verən və siyasətində əsas amil vətəndaş olan dövlətlər gəlir.

Azərbaycan son 30 ildə olduğu kimi, Vətən müharibəsindən sonra da Azərbaycanın müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçısı olmuş şəxslərə diqqət və qayğı ölkəmizdə yüksək səviyyədədir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın müvafiq göstərişlərinə əsasən, dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.

Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan Fərman və Sərəncamlar, Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəməti, qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu gün şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına göstərilən hərtərəfli qayğı nümunəvi xarakter daşıyır. Şəhid ailələrinin, müharibə əlillərinin, veteranlarının sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil

haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması da ölkə ictimaiyyəti tərəfindən yüksək minnətdarlıqla qarşılanır. Prezident İlham Əliyev şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim edilməsi mərasələrindəki çıxışlarında bir daha bildirib ki, bütün şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq, sözdə yox, əməldə: "Çünki hər şey əməllə ölçülür. Yaxşı sözlər demək çox asandır, biz bunu eşitmişik və İkinci Qarabağ müharibəsi dövründə bizim bütün sözlərimiz həqiqəti əks etdirirdi. Ermənistan tərəfi isə öz vətəndaşlarını aldadırdı, vicdansızcasına aldadırdı, yalan danışırdı və bunun acısını indi çəkir. Bizim isə sözümüz tam həqiqətdir və verilmiş vədlər də tam yerinə yetirildi. Bu günə qədər verilmiş bütün vədlər, o cümlədən ərazi bütövlüyümüzün bərpası ilə bağlı verilmiş vədlər yerinə yetirildi".

Son vaxtlar bəzi şəxslərin qazi adından sui-istifadə etmələri yolverilməzdir. Çünki ölkəmizdə qazilərə, şəhid ailələrinə dövlət tərəfindən yüksək diqqət və qayğının göstərildiyi hamıya məlumdur. Əminliklə söyləmək olar ki, Azərbaycan bu kateqoriyadan olan vətəndaşlara göstərilən diqqətə görə dünyanın ən qabaqcıl dövlətidir. Şəhid ailələri və qazilərə olan bu qayğı "Azərbaycan modeli" kimi bir çox dövlətlər tərəfindən öyrənilməkdədir. Lakin qazilərə, şəhid ailələrinə qayğı göstərmək, sadəcə, dövlətin deyil, hər bir vətəndaşın borcudur və sevindiricidir ki, Azərbaycan cəmiyyəti bu baxımdan üzərinə düşən məsuliyyəti lazımınca dərk edir.

Təəssüf doğuran odur ki, bütün müsbət tendensiyalara rəğmən, bəzən mənfi təzahürlərə də rast gəlinir. Bunlardan da biri bəzi şəxslərin özünü heç bir əsas olmadan qazi kimi təqdim

etməsi ilə bağlıdır. Təəssüflər olsun ki, bəzən heç bir əsas olmadan özünü qazi kimi təqdim edən, müxtəlif dövlət qurumlarına qarşı qanunsuz tələblərlə çıxış edən insanlara da rast gəlinir. Cəmiyyəti aldadan, eyni zamanda, dövlətin bu istiqamətdə gördüyü işlərə kölgə salan bu şəxslər belə bir təsəvvür yaratmaq istəyirlər ki, guya onlar qazi olsa da, dövlət diqqətindən kənarda qalıblar. Bu gün cəmiyyətdə qaziləri öz ətrafında cəmləmək, onların adından, nüfuzundan şəxsi ambisiyalarını, çirkin məqsədlərini həyata keçirmək üçün istifadə etməyə çalışan qüvvələr mövcuddur. Qazilərimiz bu məsələdə diqqətli olmalı, belə qüvvələrdən uzaqda durmalı, kimlərinsə onlardan istifadə etməsinə imkan verməməlidir. Əgər onlar hansısa problemlə üzləşiblərsə, bunun həlli üçün əlaqədar dövlət qurumlarına müraciət etməli, problemin qanuni şəkildə həlli üçün hüquqi imkanlardan yararlanmalıdırlar. Və qazilər onu da unutmamalıdırlar ki, irəli sürülən hər bir tələb, hər bir istək qanuna istinad etməli, qanuni olmalıdır. Bu, həmin tələbin reallaşması üçün ən başlıca amildir.

Mən bütün qaziləri, veteranları 44 günlük Vətən müharibəsində olduğu kimi, bu gün də Ali Baş Komandanın ətrafında sıx birləşməyə çağırıram. Uğura gedən yolumuz birliyimizdən, həmrəyliyimizdən keçir və bu birliyi qorumaq bizim üçün hər şeydən vacibdir. Ancaq təəssüf doğuran odur ki, bəzi qazilərin müxtəlif əsassız iddia və tələblərlə çıxış edirlər. Hansısa qanunsuz təklif və tələnna ilə çıxış etməyin qazi adına, qazi statusuna yaraşmamaqla yanaşı, bu məsələyə hər kəs həssas yanaşması vacibdir.

Qələbəmizdən 5 il keçməsinə baxmayaraq 44 günlük müharibə bitdikdən sonrakı dövrdə Azərbaycan dövləti tərəfindən şəhid ailələrinə, qazilərə hərtərəfli dəstək göstərilir.

Onların bütün ehtiyaclarının qarşılanması, problemlərinin həlli, sosial təminatının yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülür. Amma təəssüf ki, bu gün bəzi şəxslər özlərini qazi kimi təqdim edərək, imtiyazlar əldə etmək məqsədilə dövlət orqanlarını şantaj edir, müxtəlif səhnələr quraraq dövlət orqanlarını qınaq hədəfinə çevirməyə cəhd göstərirlər. Şəhid ailəsi və qazi adına ləkə gətirən belə hallar ictimaiyyət tərəfindən də qınaqla qarşılanır.

Həm dövlətimiz, həm cəmiyyətimiz onlara böyük diqqət və qayğı göstərir. Şəhid ailəsi, müharibə əlili, Azərbaycanın ərazi bütövlüyü və torpaqlarımızı işğaldan azad edən qazilərin mövqeyi cəmiyyətdə hər zaman öndə tutulur. Həm dövlətimiz, həm cəmiyyətimiz onlara böyük diqqət və qayğı göstərir. Əlbəttə, onların buna haqları var.

Bəli, bu gün dövlət başçımızın söylədiyi kimi: "Bu həssas kateqoriyadan olan insanlara müəyyən dərəcədə təsəlli vermək və onların dərdinə şərik olmaq üçün biz bu addımı atırıq. Əlbəttə, bu, böyük vəsait tələb edir. İndi hər kəs bilir ki, bir mənzilin qiyməti neçəyə başa gəlir və bu, büdcə üçün böyük bir yükdür. Amma biz bu yükün altına girmişik və sona qədər bu işi aparacağıq, bu kateqoriyadan olan ta axırıncı insan mənzillə, avtomobillə təmin olunana qədər bu məsələ ilə məşğul olacağıq".

Dövlət başçısı, eyni zamanda, şəhid ailələrinin sosial təminatı ilə də bağlı fikirlərini bildirib: "Eyni zamanda, şəhid ailələrinin sosial təminatı da yaxşılaşır. Onlara nəzərdə tutulmuş müavinətlərin məbləği müntəzəm olaraq artırılır. Biz daim onları diqqət mərkəzində saxlayacağıq".

Qazilərə və şəhid ailələrinə dövlət dəstəyi və hərtərəfli sosial qayğı davamlı prosesdir. Şanlı Qələbəmizlə başa çatan Vətən müharibəsindən sonra azad edilmiş ərazilərin bərpası ilə

yanaşı, müharibədə şəhid olmuş hərbçilərimizin ailələrinə və yaralanmış əsgərlərimizə yüksək səviyyədə qayğı və diqqət göstərilməsinə başlanıldı. Dövlətimizin başçısının göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırda da genişmiqyaslı sosial dəstək tədbirləri həyata keçirilir. Sosial sahədə aparılan genişmiqyaslı islahatlar sırasında Vətən müharibəsi qazilərinin əlilliyinin qiymətləndirilməsi və reabilitasiya xidmətləri xüsusi yer tutur.

Bu günlərdə Vətən müharibəsində yaralanmış hərbçilərin əlilliyinin qiymətləndirilməsi, reabilitasiya xidmətləri və vasitələri ilə təminatı, əlillik sahəsində tətbiq olunacaq yeni meyarlara dair böyük işlər görülməkdədir. Müharibədən sonra aidiyyəti qurumların nümayəndələrindən ibarət Komissiya müharibədə yaralanmış qazilərin əlilliyinin qiymətləndirilməsi üçün operativ sənədləşdirmə işlərini yerinə yetirib. Yekun mərhələ kimi, müalicə müddəti başa çatmış qazilərin əyani müayinələr əsasında əlilliyinin qiymətləndirilməsini aparılıb, 3 min qaziyə əlillik və sosial ödənişlər təyin olunub. Ümumilikdə son 3 ildə 160 mindən çox əlillik təyinatı həyata keçirilib. 2021-ci il və cari ilin ötən dövrü ərzində 91 min şəxsə əlillik təyin edilib. Təkcə bu ilin 5 ayında əvvəlki illərin müvafiq dövrləri ilə müqayisədə 2-3 dəfə çox - 30 min şəxsə əlillik təyin edilib.Ölkə rəhbərliyi tərəfindən şəhid ailələri, qazilər və müharibə iştirakçıları daim diqqətdə saxlanılır, dövlətin qayğısı ilə əhatə olunurlar. Dövlət orqanları və özəl təşkilatlar tərəfindən şəhid ailələri və qazilərlə müntəzəm görüşlər keçirilir, mövcud problemlərin həllində kömək göstərilməsi məqsədilə müxtəlif tədbirlər görülür. Qarabağın erməni işğalçılarından azad olunmasında misilsiz

xidmətləri olan şəhidlərin ailə üzvləri və qazilərin həyatımızın bir çox sahələrində işlə təmin olunmasına xüsusi önəm verilir.

İnsanların sosial rifah halının yaxşılaşdırılması yönündə qəbul edilmiş qanunlar, fərman və sərəncamlar əhalinin sosial müdafiəsi sahəsində islahatlar uğurla həyata keçirilir. Sosial müdafiə sistemi bu sahədə mühüm yer tutur və insanların həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir. Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə aparılan sosial siyasət cəmiyyətin hər bir fərdini əhatə edir. Şəhidlərin ailə üzvlərinə, müharibə veteranlarına və əlillərinə qayğı və diqqət Azərbaycanda sosial siyasətin başlıca məqsədlərindən biridir. Həmin şəxslərin məşğulluğunun təmini və onların münasib işlə təmin olunması məsələsi də vacib amillərdəndir.

Prezident İlham Əliyevin xüsusi qayğısı və tapşırıqları əsasında dövlət orqanları tərəfindən şəhidlərin ailə üzvləri və Vətən müharibəsi iştirakçıları üçün mütəmadi olaraq sosialyönümlü tədbirlər həyata keçirilir. YAŞAT fondunun təsis edilməsi və gördüyü işlər bunun bariz nümunəsidir.

Bu gün Vətən müharibəsi iştirakçılarına və qazilərə qayğı göstərilir. Onların müraciətlərinə həssas yanaşılması mühüm əhəmiyyət kəsb edir.Həmçinin şəhid ailəsi üzvləri və Vətən müharibəsi iştirakçıları ilə müntəzəm iş aparılır. Onlar yerli icra hakimiyyəti strukturlarının rəhbərliyi tərəfindən xüsusi qayğı ilə əhatə olunublar.

Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 illik işğala son qoyuldu. Bu zəfərin müəllifləri bütün Azərbaycan xalqı və xalqımızın qəhrəman oğullarıdır. Azərbaycan xalqı öz qəhrəmanlarını heç vaxt unutmayacaq, qazilərin daim yanında olacaqdır.

# Gəncədə şəhid ailələri və qazilər daim diqqət mərkəzindədir



Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə yazılan 2020-ci ilin sentyabr ayından bir il ötsə də o tarixi qələbə hələ yüz illərlə xatırlanacaq. Çünki həmin ildə qüdrətli Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində böyük Zəfərə, unudulmaz tarixi qələbəyə imza atdı. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun xalqımıza bəxş etdiyi sevinci hər bir azərbaycanlı bu gün böyük qürur hissi ilə yaşayır. Müasir tariximizə qızıl hərflərlə yazılan bu misilsiz hərbi nailiyyət haqqında hələ uzun illər iftixarla danışılacaq. Ən əsası isə qazandığımız bütün bu tarixi nailiyyətlərə görə Ali Baş Komandana, onun rəhbərliyi altında bizləri Qələbə sevincinə qovuşduran Azərbaycan Ordusuna, əsgər və zabitlərimizə, Vətən uğrunda canından keçən qeyrətli, cəsur oğullarımıza və qazilərimizə minnətdarıq.

Gəncə ulu öndər Heydər Əliyevin qayğısından bəhrələnən, Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına, Gəncəyə daimi diqqətinə layiq olmağa özündə güc tapan, tarixinə sonsuz məhəbbət və ehtiramı ilə seçilən bir şəhər olduğunu öz əməli işi ilə sübuta yetirib və bundan qürur duyur.

Bu qədim şəhər zaman-zaman sınaqlara da məruz qalıb. Lakin hər dəfə bu sınaqlardan uğurla çıxan gəncəlilər dövlətə və dövlətçiliyə sədaqətini nümayiş etdirib, yenidən inkişaf yoluna qədəm qoyublar.Gəncə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqəti və qayğısı sayəsində günü-gündən inkişaf edir.

-Vətən uğrunda ölmək, şəhadətə yüksəlmək ölümlərin ən şərəflisi hesab olunur. Məhz buna görə də Vətənin toxunulmazlığı, onun azadlığı, müstəqilliyi və suverenliyi uğrunda canından keçən hər bir şəhidin xatirəsi əziz tutulur, onların ruhu böyük hörmət və ehtiramla anılır. Bu gün Azərbaycanın elə bir bölgəsi, elə bir kəndi tapılmaz ki, orada bir şəhid məzarı olmasın. Şəhidlər xiyabanı sadəcə and yerimiz, qürur ünvanımız deyil. Şəhidlər Xiyabanı həm də Azərbaycan xalqının milli həmrəylik anlayışının təzahür tapdığı məkandır.- Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Şəhidlər xiyabanını ziyarət edərkən qeyd edib. O, buradakı Əbədi Məşəl Abidəsi önünə əklil qoyub, şəhidlərin ruhuna hörmət və ehtiramını ifadə edib.

Şəhid ailələrinin, qazilərin, müharibə veteranlarının problemləri ölkə başçısının xüsusi nəzarətindədir. Gəncə şəhərində də şəhid ailələri, qazilər və müharibə veteranları xüsusi diqqət və qayğı ilə əhatə olunmuşdur. Mütəmadi olaraq şəhid və qazi ailələri ziyarət edilir, şəhidlərin anım və doğum günləri ictimaiyyət

nümayəndələrinin iştirakı ilə qeyd olunur, problemləri öyrənilir, onların həlli üçün aidiyyəti qurumlarla birlikdə lazımi tədbirlər görülür.

Gəncənin dövlət qurumları Vətən müharibəsi iştirakçıları, qazilər və şəhid ailələri ilə yaxından maraqlanır, onları narahat edən məsələlərin aradan qaldırması istiqamətində operativ tədbirlər həyata keçirirlər.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov tez-tez şəhid ailələri və qazilərlə görüşür. Görüş Nizami və Kəpəz rayon icra hakimiyyətləri başçılarının və bələdiyyə sədrlərinin, idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə keçirilir.



Görüşdə iştirak edən şəhid ailələri və qazilərin, o cümlədən müharibə iştirakçılarının müraciətləri tək-tək dinlənilir. Müraciətlərdə maddi yardımın, müalicə üçün köməyin

göstərilməsi, fərdi yaşayış evinin inşası üçün torpaq sahəsinin ayrılması, işlə təminat və s. məsələlər qaldırılır.

Müraciətlərin və problemlərin bir çoxu yerindəcə öz həllini tapır, digərlərinin araşdırılaraq, qanun çərçivəsində həlli edilməsi üçün tapşırıqlar verilir.

Qeyd edək ki, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun görüşləri mütamadi olaraq davam etdirilir. Bu görüşlərin əsasında vətəndaş məmnunluğu dayanır.

# Qəhrəman oğullar xalqımızın qəlbində həmişə yaşayacaqdır



**Torpaqlarımızın düşmən işğalından azad olunmasında misilsiz şücaət və qəhrəmanlıq nümayiş etdirmiş igid oğul və qızlarımız - şəhidlərimiz, qazi və veteranlar xalqımızın qəlbində və onun tarixi yaddaşında həmişə yaşayacaqdır.**

Vuruşan, ölkəmizin maraqlarını və xalqımızın dinc gələcəyini qoruyan, döyüş meydanlarında öz vəzifə borcunu ləyaqətlə yerinə yetirən oğullarımız bu gün dinc həyatını yaşamaqdadır. Bu gün sülh və təhlükəsizlik naminə həlak olan şəhidlərimizin xatirəsini yad etmək və bu yolda öz sağlamlıqlarını qurban verən qazilərimizin xatirini əziz tutmaq bizim bir vətəndaşlıq borcumuzdur. Hər bir veteranın Vətənin müdafiəsinə verdiyi töhfəni qeyd etmək və gələcək nəsillərə bu qəhrəmanlara hörmət və minnətdarlıq hisslərini çatdırmaq vacibdir.Bu, həmçinin bizə sülhün qiymətini xatırladır və bizi həyatı qiymətləndirməyə, xalqımıza harmoniya və sülh üçün çalışmağa çağırır. Bu igid, qəhrəman döyüşçülərin əməllərinin xatirəsi gəncləri Vətənə xidmət ənənələrini şərəflə davam etdirməyə ruhlandırmalıdır.Veteran və qazilərə hörmət və izzət Azərbaycanın bu mübarizə ilə bağlı tarixi yaddaşının qorunmasına xidmət edən vətəndaşlıq hissləridir.

Respublikamızda veteranların, şəhid ailələrinin dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub. Azərbaycan bu baxımdan dünyanın digər dövlətləri üçün də nümunə hesab edilir. Azərbaycan dövləti hər zaman Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün imkan və resurslarını şəhid ailələrinin, müharibə əlillərinin, veteranların qayğılarının ortadan qaldırılmasına, onların sosial rifahının yüksəldilməsinə, mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına sərf edib.

Bu gün dövlətimiz üçün hərbi əməliyyatlarda iştirak edən şəxslərin müharibədən sonra mövcud durumu, şəhid və qazi ailələrinin sosial-psixoloji vəziyyəti önəmlidir. Bu kimi çağırışların öhdəsindən, məhz sözün əsl mənasında, bütün parametrlərinə görə sosial dövlət kriteriyalarına cavab verən və siyasətində əsas amil vətəndaş olan dövlət gəlir.

Ölkəmizdə əzəli torpaqlarımız uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçısı olmuş şəxslərə diqqət və qayğı yüksək səviyyədədir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın müvafiq göstərişlərinə əsasən, dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.

Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan Fərman və Sərəncamlar, Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəməti, qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu gün şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına göstərilən hərtərəfli qayğı nümunəvi xarakter daşıyır. Şəhid ailələrinin, müharibə əlillərinin, veteranlarının sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması da ölkə ictimaiyyəti tərəfindən yüksək minnətdarlıqla qarşılanır.

# Veteranlar və gənc nəsil



Qarabağ Müharibəsi veteranları öz təcrübələrini Qələbənin varislərinə - Vətənin layiqli və sadiq müdafiəçiləri olacaq gənc nəslə ötürürlər.

Vətənpərvərlik son dərəcə geniş və çoxşaxəli bir anlayışdır. Vətənpərvərlik dərsləri Vətənə fəal sevgi və onun maraqlarını müdafiə etmək istəyi aşılayır. Əcdadlarımızdan miras qalan vətənpərvərliyin gələcək nəsillərə öz-özünə ötürüləcəyinə inanmaq böyük bir səhv olardı. Veteranlarla görüşlər gənc nəsildə vətənpərvərlik şüurunu aşılamaq üçün təsirli bir yoldur. Qəhrəmanlıq taleyini yaşayan insanlarla -Qarabağ Müharibəsi iştirakçıları ilə birbaşa ünsiyyət və onların vətənlərinə

fədakarlıq dolu sədaqət hekayələri gənclərə müsbət təsir göstərir, onları həyatın mənası və davamlı insani dəyərlər haqqında düşünməyə sövq edir.Bu, uşaqlarda, yeniyetmələrdə və gənclərdə vətənpərvərlik hisslərinin tərbiyəsinə, mənəvi və əxlaqi dəyərlərin inkişaf etdirilməsinə, mədəni və tarixi ənənələrin və nəsillərin davamlılığının qorunmasına yönəlmiş məsuliyyətli və davamlı bir səydir**.** Çünki bu, planetdə həyatı təmin edən şeydir.Buna görə də, ildən-ilə Qarabağ müharibəsinin həvəsli mühazirəçiləri təhsil müəssisələrində tələbələrlə görüşür, aktual mövzuları müzakirə edir və Vətən naminə həyatı və xidmətlə bağlı təəssüratlarını və təcrübələrini onlarla bölüşürlər. Cəsarət, rəşadət və şərəf dərsləri, sağlam həyat tərzinin təşviqi, dövlətimizin tarixinin şanlı səhifələrinə həsr olunmuştədbirlər gənc nəsli mənəvi-əxlaqi və qəhrəmanlıq-vətənpərvərlik tərbiyəsi sahəsindəki uğurlarının və nailiyyətlərinindaha da artırılmasına ruhlandırır.

Veteranlar gənclərlə ünsiyyət qurmağın yeni yollarını tapmaq ehtiyacı ilə üzləşirlər, çünki müasir həyatın reallıqları yeni yanaşmalar tələb edir. Bəs veteranların gənc nəslin milli-mənəvi və vətənpərvərlik tərbiyəsində iştirakı nə dərəcədə vacibdir?

Bu gün gənclərlə ünsiyyət formatı mütləq bir qədər dəyişməli, müharibə haqqında hekayələrdən uzaqlaşaraq daha çox canlı söhbətlərə can atılmalı və bu görüşlər ölkəmizin tarixinə, xüsusən də onun tarixiqələbələrinə və nailiyyətlərinə diqqət yetirməyə yönəldilməlidir. Vətənə və onun müdafiəsinə sevgi mövzuları ətrafında müxtəlif dəyirmi masalar keçirilməli, bununla da dövlətimizin və vətənimizin nüfuzunu artırmalıyıq.

Nəsillər arasında ünsiyyət uşaqlarımızın və nəvələrimizin uğurunun təməlidir. Veteranların gənc nəslin mənəvi və

vətənpərvərlik tərbiyəsində iştirakı çox vacib bir işdir. Gənc nəsil veteranlarla canlı ünsiyyət vasitəsilə vətənin tarixini, yaşlı nəslə hörmət etməyi öyrənir, qərarlar qəbul edir və bu təcrübəni gələcək həyatlarına tətbiq edə bilirlər.

Nəsillər arasında əlaqə gənclərimizin vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyət daşıyır. Veteranlar ilə gənclər arasında ünsiyyət istənilən formada saxlanılmalıdır. Bu işdə isə mütləq yaşlı nəsil həmişə böyük rola malikdir. Təhsildə bu proses olaraq, ilk növbədə, şəxsi nümunədir və veteranların bu baxımdan rolu misilsizdir. Yalnız xüsusi günlərdə deyil, hər gün, həmişə gənclərin arasında olmaq vacibdir.Vətənpərvərlik bəzən millətçiliyə çevrilir, onun əsl mənası və anlayışı itirilir. Buna görə də bugünkü nəsil üçün vətənpərvərlik tərbiyəsi ilk növbədə Vətənin həyatında iştirak etməyin vacibliyini başa düşən və onun mədəniyyətini, adət-ənənələrini və tarixini sevən, dərindən bilən və ona hörmət edən insanlara həvalə edilməlidir. Dövlət, ailə, orta və ali təhsil müəssisələri və Qarabağ Müharibəsi veteranları gəncləri düzgün istiqamətə yönəltməlidir.Veteranların gənc nəslin mənəvi və vətənpərvərlik tərbiyəsində iştirakı vacibdir.

# Zəfər Günü Rəşadət və Ədalət bayramıdır



*Zəfər Günü rəşadət bayramıdır, ədalət bayramıdır, milli qürur və milli ləyaqət bayramıdır*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

8 Noyabr - Zəfər Günü xalqımızın qürur mənbəyinə çevrilmiş şanlı tarixdir. Həmin tarixin üç qəhrəmanı vardır: Müzəffər Ali baş Komandan, onun formalaşdırdığı yenilməz ordu və dəmir yumruğa çevrilmiş xalq. Bu reallıqda Prezident-ordu-xalq sözləri sinonimləşmiş, tarixi Zəfərin simvollarına çevrilmişdir.

Bu tarixi zəfəri ilə Prezident İlham Əliyev öz adını müzəffər sərkərdə olaraq təkcə mənsub olduğu ölkənin deyil, əslində dünyanın hərb tarixinə əbədi olaraq həkk etdi. Bu tarixi qalibiyyətin nəticəsində ordumuzun yenilməzliyi, qüdrəti və vətənpərvərliyi sözdə deyil, qanlı döyüş meydanlarında sübuta yetirildi.

Noyabrın 8-də Bakıda Azadlıq meydanında tarixi Zəfərin beş illik yubileyi ilə bağlı üçüncü hərbi parad keçirilmişdir. Qardaş dövlətlərin liderləri: Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif də müzəffər Prezident İlham Əliyevlə yanaşı olaraq bu tarixi hərbi paradda iştirak etmişdir.

Azərbaycan Zəfərimizin 5-ci ildönümünə həsr edilən bu tarixi hərbi paradı keçirməklə bütün dünya ictimaiyyətinə, xüsusilə Cənubi Qafqaz bölgəsinə sülh və sabitlik arzulayan xarici tərəfdaşlarımıza, habelə müxtəlif təxribatlarla regionumuzu qarışdırmaq istəyən beynəlxalq qaragüruhçu qüvvələrə və onların daxilimizdəki miskin törtöküntülərinə də mühüm mesajlar vermişdir. Bu hərbi parad həm Azərbaycanın hərbi üstünlüyünü, həm siyasi iradəsini, həm diplomatik məharətini, həm də güclü müttəfiqlərə malik olduğunu nümayiş etdirdi. Bu hərbi parad vasitəsilə tarixin ən qüdrətli Azərbaycanı bir daha dünyaya təqdim edildi.

Zəfər paradı gələcəyin inkişaf konsepsiyasını müəyyənləşdirir

Azərbaycanın 8 Noyabr - Zəfər Günü münasibətilə keçirdiyi hərbi parad təkcə bir qələbənin deyil, həm də dövlət suverenliyinin bərpasının, milli iradənin və qlobal güc balansında Azərbaycanın yeni yerinin nümayişidir. Bu paradın əsas özəlliyi ondan ibarətdir ki, Türkiyə və Pakistan kimi iki mühüm regional və müsəlman dünyasının aparıcı dövlətlərinin liderləri burada iştirak edərək, dünyaya həm siyasi, həm də mənəvi mesajlar verdilər:

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Bakıya gəlişi Azərbaycanın diplomatik müstəqilliyini və

qardaşlıq diplomatiyasının strateji nəticələrini bir daha təsdiqləyir.

Türkiyə və Pakistan liderlərinin paradda birgə iştirakı, yeni bir geosiyasi üçbucağın, Ankara-Bakı-İslamabad xəttinin möhkəmləndiyini göstərir. Bu, həm təhlükəsizlik, həm müdafiə sənayesi, həm də enerji-kommunikasiya xəritəsi baxımından böyük əhəmiyyət daşıyır.

Hər üç ölkənin liderlərinin çıxışlarındakı ortaq məqama da xüsusi diqqət yetirmək lazımdır. Bunlar milli suverenlik, müstəqil siyasət və ədalətli dünya nizamını ifadə edir. Prezident İlham Əliyevin "Azərbaycan heç vaxt kənardan idarə olunan dövlət olmayıb və olmayacaq" fikri, Ərdoğanın "Qarabağ zəfəri Türkiyənin də qələbəsidir" bəyanatı və Pakistan liderinin "Biz bu qardaşlığın sarsılmaz olduğunu bir daha sübut edirik" sözləri bir-birini tamamlayır. Bu sözlər üç qardaş ölkənin də mənəvi-siyasi qələbəsini ifadə edir,

Hərbi paradın vizual tərəfi - müasir silahların, texnologiyaların, ordunun peşəkarlığının nümayişi Azərbaycan Silahlı Qüvvələrinin regional güc statusunu bir daha təsdiqləyir. Lakin daha önəmlisi paradın ciddi psixoloji və diplomatik təsir gücü ilə fərqlənməsidir:

Bu paradla Azərbaycan dünyaya sübut etdi ki, suverenliyini qorumaqla yanaşı, regionda sabitlik və əməkdaşlıq missiyasını da öz üzərinə götürür. Türkiyə və Pakistan liderlərinin iştirakı isə bu missiyanın qardaşlıqla möhkəmləndirilmiş beynəlxalq legitimliyini təsdiqləyir. Gələcəkdə "Qardaşlıq üçlüyü"nün birgə fəaliyyəti təkcə regionda deyil, qlobal miqyasda da yeni balansın formalaşmasına təsir göstərə bilər.

# Gəncədə 8 Noyabr - Zəfər Gününün beş illiyinə həsr olunmuş tədbir keçirilib



Gəncə Şəhər İcra Hakimiyyətinin, YAP Gəncə şəhər təşkilatının və Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollecin birgə təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Günü münasibətilə tədbir keçirilib.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki vitse-konsulu Yığıt Yalın Soyal, Gürcüstanın Gəncədəki Baş konsulu Kaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, millət vəkili Pərvin Kərimzadə, QMİ Qazılar Şurasının sədri Hacı Tahir Abbasov, bələdiyyə sədrləri, idarə, müəssisə və təşkilat rəhbərləri, şəhid ailələri, müharibə iştirakçıları, partiya fəalları, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.



Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin YAP Gəncə şəhər təşkilatının inzibati binasında yerləşən büstünü ziyarət edib, önünə gül dəstələri düzüblər. Daha sonra Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib və "Qurtuluşdan Zəfərə" adlı film nümayiş etdirilib.

Niyazi Bayramov tədbir iştirakçılarını 8 Noyabr – Zəfər Günü münasibətilə təbrik edərək bildirib ki, beş il əvvəl, 2020-ci ilin 27 sentyabrında başlayan 44 günlük Vətən müharibəsi Azərbaycan tarixinin ən parlaq səhifələrindən birinə çevrilib. O vurğulayıb ki, bu Zəfər təkcə hərbi qələbə deyil, həm də milli ruhun, dövlət-xalq birliyinin və 30 illik ədalətsizliyə qarşı tarixi ədalətin bərpasıdır. Niyazi Bayramovun sözlərinə görə, Zəfər Günü yalnız keçmişin şanlı səhifəsi deyil, həm də gələcəyə olan inamın, milli iradənin təntənəsidir.

Pərvin Kərimzadə çıxışında bildirib ki, hər bir xalqın tarixində unudulmaz, müqəddəs günlər olur:

"Belə əlamətdar günlər təkcə bir dövrün deyil, bütöv bir millətin tarixini, dünənini, bu gününü və sabahını dəyişdirir. Nə xoşbəxtik ki, Azərbaycan xalqının taleyində bu cür qürurverici günlər çoxdur. 2020-ci ilin 8 noyabrında qazanılan Zəfər isə xalqımızın şərəf, iftixar və qürur tarixidir."

Bayram Aslanov qeyd edib ki, zaman sürətlə ötüb keçir və artıq tarixi Zəfərimizin beşinci ildönümünü qeyd edirik: "Rəşadətli Azərbaycan Ordusu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində işğalçı qüvvələri məğlub edərək xalqımıza Zəfər sevinci yaşatdı, regiona sülh gətirdi. Ordumuz təkcə torpaqlarımızı deyil, milli kimliyimizi və qürurumuzu da bizə qaytardı."

Türkiyənin Gəncədəki vitse-konsulu Yığıt Yalın Soyal, Xüsusi Təyinatlıların Qazilərinin, Şəhid ailələrinin, Veteranların və Qazilərin İctimai Birliyinin sədr müavini Elçin Həsənov, Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollecin direktoru Xoşqədəm Xudiyeva da çıxış edərək 8 Noyabr Zəfər Gününün tarixi əhəmiyyətindən danışıblar və iştirakçıları bu möhtəşəm qələbə münasibətilə təbrik ediblər.

Tədbir Regional Kollecin tələbələrinin hazırladığı konsert proqramı ilə davam edib.

# Gəncədə 8 Noyabr - Zəfər Gününün beş illiyinə həsr olunmuş dəyirmi masa təşkil olunub




Gəncə Şəhər İcra Hakimiyyətində təsdiqlənmiş "Tədbirlər Planı"na uyğun olaraq 8 Noyabr - Zəfər Gününün beş illiyinə həsr olunmuş dəyirmi masa keçirilib.

Əvvəlcə rəsmilər şəhid ailələri ilə birgə Ulu Öndər Heydər Əliyevin şəhərin baş meydanında ucaldılan abidəsini ziyarət edib, önünə tər çiçəklər düzüblər.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki vitse-konsulu Yiğit Yalın Soyal, Gürcüstanın Gəncədəki baş konsulu Kaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, millət vəkilləri Pərvin Kərimzadə, Müşfiq Cəfərov, Gəncə Şəhər Apellyasiya Məhkəməsinin sədri Toğrul Əli, Gəncə Şəhər Məhkəməsinin sədri Xaqani Tağıyev, Azərbaycan

Texnologiya Universitetinin rektoru Yaşar Ömərov, QMİ Qazılar Şurasının üzvü Hacı Tahir Abbasov, bələdiyyə sədrləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərləri, Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının məsul əməkdaşları və şəhid ailələri iştirak ediblər.

Dəyirmi masada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, həmçinin Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Niyazi Bayramov çıxış edərək bildirib ki, Azərbaycan xalqının tarixinə "Zəfər salnaməsi" kimi yazılan 44 günlük Vətən müharibəsindən beş il keçir. O qeyd edib ki, Müzəffər Ali Baş Komandan, möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad edib. 27 sentyabr 2020-ci il tarixində başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi Azərbaycan xalqı üçün Vətən müharibəsinə çevrilib. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşdu: işğala son qoyulsun və tarixi ədalət bərpa edilsin. Bu zəfərin təməlində uğurla həyata keçirilmiş dövlət siyasəti, xalqın öz liderinə və ordusuna inamı, ordunun isə xalqa güvəni dayanır.

Dəyirmi masa iştirakçıları vurğulayıblar ki, Vətən müharibəsində qazanılan möhtəşəm hərbi-siyasi Zəfərdən sonra Azərbaycan dövləti və xalqı tarixinin yeni, qürurverici mərhələsinə qədəm qoyub. Bu gün dünya birliyi və beynəlxalq ictimaiyyət Azərbaycanı təkcə müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlərlə deyil, həm də güclü, müstəqil və söz sahibi olan bir dövlət kimi tanıyır. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin əsası qoyduğu inkişaf və dövlətçilik yolu Prezident

İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmlənib, Azərbaycan öz ən mürəkkəb və taleyüklü məsələlərini uğurla həll edən qüdrətli bir ölkəyə çevrilib.



Bildirilib ki, 44 günlük Vətən müharibəsi xalqımızın qəhrəmanlıq salnaməsinə çevrilmiş, hər zaman iftixarla xatırlanacaq və nəsillərə qürur mənbəyi olacaq bir tarixdir.

# Gəncədə Zəfər Gününə həsr olunmuş ağacəkmə aksiyası təşkil olunub



Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə 8 Noyabr-Zəfər Gününün beşinci ildönümü münasibətilə Ekoloji Park Kompleksində ağacəkmə aksiyası keçirilib.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki vitse-konsulu Yiğit Yalın Soyal, Gürcüstanın Gəncədəki Baş konsulu Kaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, millət vəkilləri Pərvin Kərimzadə, Müşfiq Cəfərov, Gəncə Şəhər Apellyasiya Məhkəməsinin sədri Toğrul Əli, Gəncə Şəhər Məhkəməsinin sədri Xaqani Tağıyev, QMİ Qazılar Şurasının üzvü Hacı Tahir Abbasov, Azərbaycan Texnologiya Universitetinin rektoru Yaşar Ömərov, bələdiyyə sədrləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərləri, həmçinin şəhid ailələri iştirak ediblər.
Aksiyadan sonra Niyazi Bayramov və rəsmilər şəhid ailələri ilə birgə çay süfrəsi ətrafında söhbət ediblər.





# Gəncə şəhəri Kəpəz bələdiyyəsi Zəfər Günündə

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən başladığı zəfər yürüşü qalibiyyətlə başa çatdı. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu mənfur düşməni darmadağın edərək uzun illər işğal altında qalan torpaqlarımızı azad etdi, cənab Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi.

Şəhid ailələrinin və qazilərin sosial məsələlərinin həlli daim diqqət mərkəzindədir. Dövlətimiz hər bir Azərbaycan vətəndaşının sosial məsələlərinin həllinə xüsusi diqqətlə yanaşır, bu baxımdan çox mühüm işlər həyata keçirilir. Azərbaycan Resublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və Heydər Əliyev Fondunun dəstəyi ilə bu istiqamətdə icra olunan işlərin nəticəsini sosial cəhətdən xüsusi qayğıya ehtiyacı olanlar da öz həyatlarında hiss edirlər. Bu sahədə bələdiyyələr tərəfindən də mühüm addımlar atılmaqdadır. Onlar bir çox sahələrdə nümunə obyekti olaraq qalmaqdadır.

Bələdiyyələr vətəndaş cəmiyyətinin inkişafında vacib rol oynayır. Dövlət idarəetmə sisteminin mühüm sütunlarından biri də bələdiyyə sistemidir. Bələdiyyələr Müstəqil Azərbaycanda yerli özünüidarəetmənin əsas formasıdır. Bu, ölkədə demokratik prinsiplərin dərinləşdirilməsi və vətəndaşların idarəetmədə iştirak imkanlarının genişləndirilməsi baxımından əlamətdar işdir.

Bələdiyyələr yerli əhalinin maraqlarını ifadə edən və onların sosial, iqtisadi, ekoloji və mədəni ehtiyaclarının ödənilməsində

mühüm rol oynayan orqanlardır. Onlar yerli səviyyədə vətəndaşlara yaxın olmaqla onların gündəlik həyatını asanlaşdıran məsələlərin - infrastrukturun yaxşılaşdırılması, əhalinin sosial təminatı, abadlıq və təmizlik, torpaq bölgüsü və s. həllində fəal iştirak edirlər.

Bələdiyyələr həmçinin vətəndaş cəmiyyətinin inkişafında da vacib rol oynayır. İnsanlar yaşadıqları ərazilərdə qəbul olunan qərarlarda birbaşa iştirak edə, ictimai müzakirələrə qoşula və yerli problemlərin həllinə töhfə verə bilirlər. Bu, demokratiyanın məhz yerli səviyyədə - yəni bələdiyyə idarəetməsi ilə başlamasının bariz nümunəsidir. Bu baxımdan, bələdiyyə sisteminin inkişafı ölkəmizdə aparılan ümumi islahatların bir hissəsi kimi əhəmiyyət daşıyır. Hər bir bələdiyyə səmərəli fəaliyyəti ilə vətəndaşların dövlətə olan inamını möhkəmləndirir, cəmiyyətin rifahına xidmət edir. Yerli problemlərin zamanında və düzgün həlli həm də ümumilikdə ölkənin sosial-iqtisadi inkişafına təkan verir.

Digər sahələrdə olduğu kimi Gəncə şəhəri Kəpəz bələdiyyəsi də şəhidlərin ailə üzvləri və Vətən müharibəsi iştirakçılarına diqqət və qayğı göstərir. Həmin şəxslərin məşğulluğunun təmini və onların münasib işlə təmin olunması məsələsi həmişə diqqət mərkəzindədir.

Bu gün bələdiyyələrin fəaliyyətində şəhid ailələrinin üzvlərinə və Vətən müharibəsi iştirakçılarına qayğı göstərilməsi və onların müraciətlərinə həssas yanaşılması mühüm əhəmiyyət kəsb edir. Kəpəz bələdiyyəsində yerli sosial müdafiə və sosial inkişaf proqramlarına uyğun olaraq, ilk növbədə, onların səlahiyyətləri və maliyyə imkanları daxilində müraciətlərə baxılır, qaldırılan yerli məsələlər qısa vaxt ərzində yerinə yetirilir. Şəhidlərin ailə üzvləri və Vətən müharibəsi

iştirakçıları ilə görüşlər keçirilir, qaldırılan məsələlərin aidiyyəti olaraq ünvana çatdırılmasınadək onların yanında olurlar. Xüsusən də, həmin ailələrə torpaq sahələrinin ayrılması məsələsi müəyyən güzəştlərin tətbiq edilməsi ilə qanunvericilik qaydasında öz həllini tapır.



***Şəkildə: Kəpəz bələdiyyəsinin rəhbərliyi şəhid Şəhid Quliyev Hüseyn Həsən oğlunun ailəsinə tez-tez baş çəkir.***

Şəhid ailələrinin və qazilərin hər birinin qayğıları həmişə olduğu kimi, bu gün də Kəpəz bələdiyyəsinin nəzər və diqqətindədir. Gəncə şəhər İcra Hakimiyyətinin başçısı, müavinləri, Kəpəz Bələdiyyəsinin sədri, İcra Hakimiyyətinin əməkdaşları Zəfər Günü ərəfəsində də bütün şəhid ailələrini ziyarət etmiş, qazanılmış Zəfərdə misilsiz rolu olan şəhidlərin heç vaxt unudulmayacağını, daim onların yanında olduğunu bildirmişlər.Onu da qeyd edək ki, şəhid ailələrinə İcra Hakimiyyəti tərəfindən mütəmadi baş çəkilir, qayğıları öyrənilir, onların həlli üçün lazımi tədbirlər görülür.




***Şəkildə: Kəpəz bələdiyyəsinin sədri Yaşar Abdullayev Şəhid Muradov Elcan Eldəniz oğlunun ailə üzvləri ilə görüşüb.***



***Şəkildə:Kəpəz bələdiyyəsinin sədri Yaşar Abdullayev Şəhid Orucov Kinyaz Zirəddin oğlunun ailəsini ziyarət edib.***

Zəfər bayramı ərəfəsində Kəpəz bələdiyyəsinin üzvləri və qulluqçuları 40-dan artıq şəhid ailəsinin evinə baş çəkmiş, arzu və ehtiyacları ilə maraqlanmış, şəhərdə Qələbənin 5-ci ildönümünün təntənəli qeyd edilməsi üçün şəhərdə keçirilən bayram tədbirlərinə yaxından köməklik göstərilmişdir. Qasımov Ramal Saleh oğlu, Quliyev Hüseyn Həsən oğlu, Muradov Elcan Eldəniz oğlu, Kazımov Xuduş Həsən oğlu və digər şəhidləin evləri ziyarət olunmuşdur.Bu ailələr diqqət mərkəzində saxlanılır, onların qayğıları ilə ciddi maraqlanır və həlli üçün səylər əsirgənmir. Bu ailələr bundan sonra da daim Kəpəz bələdiyyəsi tərəfindən hərtərəfli diqqət və qayğı ilə əhatə olunacaq, görülən hər bir tədbir, atılan hər bir addım onların rifahının yaxşılaşmasına xidmət edəcək, onların hər bir məsələsi bələdiyyənin iş fəaliyyətində əsas isiqamət olaraq qalacaqdır.

Vətən Müharibəsinin iştirakçıları və qaziləri ilə də mütəmadi görüşlər keçirilmişdir. Görüşün keçirilməsində məqsəd Kəpəz bələdiyyəsi tərəfindən Vətən Müharibəsində iştirak edən qazi və ordudan təxris olunmuş gənclərimizlə mütəmadi keçirilən görüşləri davam etdirmək, qaziləri və Vətən Müharibəsi iştirakçılarını düşmən üzərində qazanılan tarixi qələbə münasibətilə təbrik edərək müzəffər Ordumuzun göstərdikləri şücaətlərin əsl qəhrəmanlıq olduğunu diqqətə çatdırmaq və onlara dövlət qayğısını göstərməkdən ibarət olub.

-Kəpəz bələdiyyəsinin Vətən Müharibəsi qaziləri ilə görüşləri davam edir. Bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları onları ziyarət edərək, səhhətləri və müalicələri ilə maraqlanırlar. Bu görüşlər mütəmadi xarakter daşımaqdadır. Biz daim qazilərimizin yanındayıq.-Kəpəz bələdiyyəsinin sədri Yaşar Abdullayev bildirir.

# Gəncədə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş möhtəşəm konsert proqramı keçirilib



Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin və F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının dəstəyi ilə şəhərin Heydər Əliyev adına meydanında 8 Noyabr - Zəfər Gününün beşinci ildönümünə həsr olunmuş möhtəşəm konsert proqramı baş tutub.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki vitse-konsulu Yiğit Yalın Soyal, Gürcüstanın Gəncədəki baş konsulu Kaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, millət vəkilləri Pərvin Kərimzadə, Müşfiq Cəfərov, məhkəmə sədrləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının məsul əməkdaşları, hərbçilər,

şəhid ailələri, müharibə iştirakçıları və şəhər sakinləri iştirak ediblər.

Əvvəlcə Hərbi Orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tanınmış aparıcı Vüsalə Əlizadənin aparıcılığı ilə keçirilən konsertdə o, Zəfərə aparan şanlı tarixə nəzər salıb. Bildirib ki, 27 sentyabr 2020-ci ildə Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə başlanan və xalqımızın "Dəmir yumruq" əməliyyatı kimi tarixə düşən Vətən müharibəsində qazanılan Qələbə, Azərbaycan xalqının qürur, birlik və yenilməzlik rəmzinə çevrildi. Rəşadətli Ordumuz 44 gün ərzində 30 illik həsrətə son qoydu. Xalq, dövlət və ordu bir amal naminə -Azərbaycanın ərazi bütövlüyü uğrunda birləşdi. Bu birliyin nəticəsidir ki, bu gün Qarabağda üçrəngli bayrağımız qürurla dalğalanır.

Konsert proqramında Əməkdar artist Lalə Məmmədova, Kəmalə Tağızadə, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, tanınmış müğənnilər İlkin Dövlətov, Çingiz Mustafayev, Leyla Rəhimova, həmçinin solistlər Samirə Hacıyeva, Vasif Bayramov və Hüseyn Abbasovun çıxışları dinlənilib. "Xəmsə" Uşaq Rəqs Ansamblının və Fikrət Əmirov adına "Göygöl" Rəqs Ansamblının rəngarəng çıxışları isə konsertə xüsusi ovqat qatıb.

Tədbirin sonunda yeddi dəqiqəlik möhtəşəm atəşfəşanlıq olub.



***8 Noyabr-Zəfər Günü münasibəti ilə Gəncə şəhərində Şəhidlər Xiyabanında Əbədi Məşəl Abidəsinin önünə gül dəstələri düzüldü***



***Gəncə Şəhər İH-nin İnzibati Binasında "Şanlı Zəfərin 5 ili" adlı dəyirmi masa təşkil edildi***



*Ekoloji Parkda ağacəkmə aksiyası keçirildi*



***Günün sonunda Mərkəzi Meydanda möhtəşəm konsert proqrami və Atəşfəşanlıq təşkil edildi***

# Gəncə Şəhər İcra Hakimiyyətinin, YAP Gəncə şəhər təşkilatının və GDU-nun 8 Noyabr - Zəfər Günü münasibətilə keçirtdiyi tədbir





# Gəncə Dövlət Universitetində 8 noyabr Zəfər Gününə həsr edilmiş tədbir təşkil edildi



Tədbirdə Universitetin rektoru Yusif Yusibov, YAP Gəncə şəhər Təşkilatının sədri Bayram Aslanov, millət vəkili, GDU-nun Elm və İnnovasiyalar üzrə prorektoru Pərvin Kərimzadə, Gəncə şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə şəhər Nizami rayon şöbəsinin rəisi Yusif Əhmədov, Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə şəhər Kəpəz rayon şöbəsinin rəisi İlkin Məmmədov, Vətən müharibəsi qaziləri, şəhid ailə üzvləri, ali təhsil müəssisəsinin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Əvvəlcə universitetin foyesində ucaldılmış Ümummilli Lider Heydər Əliyevin büstü və

şəhidlərə həsr edilmiş Xatirə guşəsi önünə gül dəstələri düzülüb.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov 8 Noyabr-Zəfər Günü münasibəti ilə tədbir iştirakçılarını təbrik edib və Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin müdrik rəhbərliyilə Şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbədən, qəhrəman oğullarımızın döyüşlərdə göstərdiyi şücaətdən və xalqımızın həmrəyliyindən danışıb. Rektor bildirib ki, torpaqlarımızın düşmən işğalından azad edilməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycanın iftixar və qürur mənbəyinə çevrildi. Xalqımız və rəşadətli Ordumuz Şanlı tarix yazaraq 44 gündə 30 illik işğala son qoydu, ərazi bütövlüyümüz bərpa olundu. Qarabağ Zəfəri Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli sərkərdəliyi, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına qazanıldı. Bu möhtəşəm Qələbə, eyni zamanda, Prezident-Xalq birliyinin təntənəsi oldu, Azərbaycan hərbi və iqtisadi gücünü dünyaya nümayiş etdirdi. Hər günü bir qəhrəmanlıq dastanı olan 44 günlük Vətən

müharibəsi Ordumuzun haqq işi uğrunda ədalətli savaşının nümayişinə çevrildi. Rektor Yusif Yusibov onu da vurğulayıb ki, Gəncə Dövlət Universitetinin əməkdaşları və tələbələri də 44 günlük Vətən müharibəsinin ilk anlarından könüllü olaraq cəbhəyə gedib, torpaqlarımızın yağı düşməndən azad olunmasında fəallıqla iştirak ediblər.

Onların sırasında şəhidlik zirvəzinə ucalanlar, eləcə də qazilər var.

Şanlı Zəfərimiz sayəsində bu gün Azərbaycanın Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərimizdə əzəmətlə dalğalanır. İşğal dövründə viran qoyulmuş torpaqlarımıza yeni həyat gəlir. Məcburi köçkünlərin doğma yurdlarına qaytarılmasına yönələn nəhəng layihələr həyata keçirilir.

Gəncə şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov çıxışında vurğulayıb ki, II Qarabağ Müharibəsi dövründə Gəncə çətin günlər yaşasa da, raket atəşi nəticəsində mülki əhali arasında şəhidlər olsa da şəhər sakinləri heç nədən qorxmadılar və həmrəylik nümayiş etdirərək Prezident İlham Əliyevin ətrafında sıx birləşdilər. Yadigar Bədəlov onu da bildirib ki, etnik və dini mənsubiyyətindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşlarının II Qarabağ Müharibəsində həmrəyliyi haqlı olaraq “Dəmir yumruq” kimi səciyyələndirilir.

Tədbirdə çıxış edən YAP Gəncə şəhər Təşkilatının sədri Bayram Aslanov bildirib ki, Milli Ordumuz cəmi 44 gün ərzində ən müasir döyüş silahlarını tətbiq etməklə yüksək peşəkarlıq nümayiş etdirdi. Ermənistan ordusunda on mindən çox əsgər fərarilik etdiyi halda, Azərbaycan Silahlı Qüvvələrində bir nəfər də fərari olmadı. II Qarabağ Müharibəsində Azərbaycanın döyüş təcrübəsi və taktikası bu gün dünyanın inkişaf etmiş ölkələrinin hərbi məktəblərində öyrənilir.

GDU-nun məzunu şəhid Rəşad Məmmədovun anası Rəfiqə Süleymanova, şəhid Səməndər İmanovun atası İsaxan İmanov, Vətən müharibəsi iştirakçısı İsmət Budaqov ölkəmizin şanlı tarixinə qəhrəmanlıq səhifələri yazan qorxmaz igidlərdən qürurla danışıblar. Canını fəda edən qəhrəmanlarımızın qanının yerdə qalmadığını, torpaqlarımızın işğaldan azad edildiyinin fərəhini yaşadıqlarını dilə gətiriblər.

Çıxış edənlər şəhid ailə üzvlərinə, müharibə iştirakçılarına, qazilərə göstərilən yüksək diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər. Həmçinin, ali təhsil ocağında yüksək ixtisaslı kadr hazırlığı ilə yanaşı, gənclərin vətənpərvər ruhunda yetişdirilməsinə önəm verən, daim qazi və şəhid ailələrinin yanında olan univseritet rəhbərliyinə təşəkkür ediblər.

8 Noyabr- Zəfər Gününə həsr edilən tədbir Musiqi fənləri kafedrasının tələbələrinin

vətənpərvərlik ruhunda hazırladığı musiqili, ədəbi-bədii proqramla davam edib.




***Şəkildə: Gəncə Dövlət Universitetində təşkil olunmuş tədbirdən.***



# İqtisadiyyat-İdarəetmə Fakültəsində Zəfər Günü



İqtisadiyyat və idarəetmə fakültəsində Zəfər Günü ilə bağlı tədbir keçirilib. Tədbirdə Gəncə Dövlət Universitetinin Humanitar məsələlər üzrə prorektor Gülsüm Fətəliyeva, dekan dosent Məsim Abadov, professor-müəllim heyəti və tələbələr iştirak edib.

Bayram tədbirində öncə Dövlət Himnimiz səsləndirilib. Vətən müharibəsində şəhid olan qəhrəman oğullarımızin xat bir dəqiqəlik sükutla yad edilib.Gəncə Dövlət Universitetinin Humanitar məsələlər üzrə prorektor Gülsüm Fətəliyeva tədbirdə giriş nitqi ilə iştirakçıları Zəfər Günü münasibətilə təbrik edib.

Çıxışlarda Vətən ümharibəsindəki tarixi Qələbədən, Azərbaycan Ordusunun qüdrətindən danışılıb.

Fakültənin tələbələrindən ibarət ansamblın təqdimatında bir-birindən maraqlı ədəbi-bədii kompozisiyalar, mahnılar səsləndirilib, rəqslər nümayiş edililib.



***Şəkildə: Gəncə Dövlət Universitetinin Humanitar məsələlər üzrə prorektor Gülsüm Fətəliyeva tədbirdə giriş nitqi ilə iştirakçıları Zəfər Günü münasibətilə təbrik etdi.***



***Şəkildə: Fakültənin tələbələrindən ibarət ansambl konsert proqramı ilə çıxış etdi.***

## Vətənpərvərlik öz ölkəsinə dəstək olmaq deməkdir

Vətənpərvərlik mənəvi-siyasi prinsip, ictimai hissdir, onun mahiyyəti Vətənə məhəbbət və şəxsi mənafeyini onun mənafeyinə tabe etmək istəyidir. Vətənpərvərlik anlayışı vətənə hörmətlə yanaşma ilə əlaqələndirilir, lakin vətənpərvərlik mahiyyəti insandan insana dəyişir. Bu səbəbdən bəziləri özünü vətənpərvər hesab edir, bəziləri isə yox.

Vətənpərvərlik ən sadə, ən aydın mənada insanlar üçün vətənə xidmət etməyə can atmaq və bu məqsədlərə çatmaq üçün bir vasitədir, məqsəddir, qəhrəmanlar üçün isə öz şirin canından belə imtina etməkdir. Harada vətənpərvərlik təbliğ olunursa, məhz bu təbliğ olunur. Vətənpərvərlik vətəni sevməkdir.

Vətənpərvərlik öz ölkəsinə dəstək olmaq deməkdir. Bütün işlərdə vətəninə xeyir vermək istəyi vətənpərvərlikdir. Yalnız vətənpərvərlər öz ölkəsinin maraqlarına təmənnasız xidmət edirlər. Vətənpərvərlik ideologiyası həmvətənləri arasında ayrıseçkilik etməyi, onları bir-birindən ayırmağı sevmir. Bütün insanların müstəsna hüquqlarını tanıyır, bir ölkənin sakinlərini, məsələn, “yerli” və “yerli olmayanlara” bölmür.

XX-ci əsrin bütün dərslərinə baxmayaraq, biz vətənpərvərlik və millətçilik arasında fərq qoymağı həqiqətən öyrənməmişik. Şər özünü yaxşılıq kimi gizlədir. Vətənpərvərlik hisslərin ən ülvisidir. Bu, hətta hiss deyil, həm fərdi, həm də sosial mənəvi mədəniyyətin ən mühüm aspektidir. Əsl vətənpərvərlər qarşısına ən ali, ən ülvi məqsədlər qoyur və bu məqsədlər uğrunda həyatını həsr edir. Millətçilik isə bəşəriyyətin bədbəxtliklərinin ən böyüyüdür. Bütün pisliklər kimi o da gizlənir, qaranlıqda yaşayır və ancaq vətən sevgisindən doğulmuş kimi görünür. Əslində, bu, başqa

xalqlara və öz millətinin millətçi baxışları bölüşməyən hissəsinə qarşı kin və nifrətdən doğur.

Vətənpərvərlik özünün ilk təzahürlərində vətəninə, yaşadığı kənd və ya şəhərinə məhəbbətdən doğur. Ancaq çox keçmədən o, uşağın əldə edə biləcəyi bütün tarixi və vətəndaş anlayışlarını əhatə edən daha dəqiq bir forma alır. Bu vətənpərvərlik müəyyən məqama qədər hər kəsə tam və hüdudsuz sədaqətlə seçilir - istər yaxşı, istər pis, fərq etməz. Bu laqeydliyin səbəbi uşağın yaxşı ilə pis arasındakı fərqi hələ tam başa düşməməsidir, çünki onun müqayisə üçün obyektləri azdır və ya heç yoxdur. ...Beləliklə, öz inkişafında dayanmayan insan öz xalqı və dövləti ideyasından yad xalqları öyrənməklə, ümumən xalq və dövlət ideyasına yüksəlir və nəhayət, mücərrəd bəşəriyyət ideyasını dərk edir ki, ona görünən hər bir insanda o, ilk növbədə bu inkişaf mərhələsində bəşəriyyətin əşrəfi olan insanı görür. İnsanda ancaq reallıqla, sağlam düşüncə ilə bir araya sığmayan uşaq fantaziyalarını oyandıran vətənpərvərlik mütləq itməlidir.

Ümumi, yəni xalqının tarixinin davam etdiyi daimi qanunlar haqqında anlayışa yiyələnən, dünyagörüşünü bəşəriyyətin ümumi ehtiyac və tələblərini dərk etmək üçün genişləndirərək, savadlı insan öz nəzəri baxışlarını və əqidələrini əməli fəaliyyət sferasına köçürmək üçün əvəzsiz bir istək hiss edir.Ancaq birdən insanın fəaliyyəti, eləcə də onun səlahiyyətləri və istəkləri bütün dünyaya bərabər şəkildə yayıla bilməz və buna görə də o, özü üçün hansısa xüsusi, məhdud dairə seçməli və onun daxilində ümumi əqidəsini tətbiq etməlidir. Bu çevrə böyük ehtimalla, ən təbiidir, vətəndir. Biz onunla daha yaxından əlaqəli olmuşuq, onu daha yaxşı tanıyırıq və buna görə də ona daha çox rəğbət bəsləyirik. Və bu rəğbət heç də

başqa xalqlara sevgi və hörmət bahasına gəlmir; yox, biri ilə digərindən daha yaxından tanış olmağın sadə nəticəsidir. Qəzetlərdən aramla oxuyuruq ki, filan toqquşmada bu qədər insan həlak olub; lakin eyni xəbər bizdə güclü təəssürat yaradır, əgər biz ölülərdən bəzilərini tanıyırıqsa və ən yaxşı dostumuz ölülər arasındadırsa, bu bizi dərin kədərə qərq edə bilər. Biz onun üçün kədərlənirik, başqalarının ondan daha pis olduğunu və bizim kədərimizə layiq olmadığını heç düşünmədən. Əgər onlarla dostluq etsəydik, daha çox kədərlənərdik. Lakin tale bizi onlarla bir araya gətirməyib və başqalarının bütün ölülərinə yas tutmaq olmaz. Eyni şey vətənpərvərliyə də aiddir: biz vətənimizə daha çox rəğbət bəsləyirik, çünki biz onun ehtiyaclarını daha yaxşı bilirik, onun vəziyyətini daha yaxşı mühakimə edə bilirik, onunla ortaq maraq və istəklərin xatirələri ilə daha sıx bağlıyıq və nəhayət, başqa bir ölkədən daha çox ona faydalı olmaq qabiliyyətini hiss edirik. Beləliklə, ləyaqətli insanda vətənpərvərlik öz ölkəsinin rifahı üçün çalışmaq istəyindən başqa bir şey deyil və yaxşılıq etmək istəyindən başqa heç nədən irəli gəlmir.

Vətənpərvərlik yaşayır və yaşayacaq. Müasir qloballaşma dövründə gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə edilməsi hər bir Azərbaycan vətəndaşı qarşısında böyük məsuliyyət yaradır. Milli vətənpərvərliyin məzmunu təkcə öz vətəninə məhəbbət hissi ilə məhdudlaşmayıb, milli ruhda tərbiyəni təşkil edir. Azərbaycan xalqı daim gənc nəslin vətənə sədaqət, xalqa hörmət, soykökünə, öz ata-babalarının adət-ənənələrinə bağlılıq ruhunda tərbiyə olunmasına xüsusi diqqət göstərib və göstərir.

**Məsim Abadov, Gəncə Dövlət Universitetinin İqtisadiyyat-İdarəetmə fakültəsinin dekanı, dosent.**

# Qürur günümüz - 8 Noyabr Zəfər Günü




Riyaziyyat və İnformatika Fakültəsində Azərbaycanın qüdrətini və milli birliyini nümayiş etdirən, tariximizin şanlı səhifəsi olan 8 Noyabr - Zəfər Gününə həsr olunmuş möhtəşəm tədbir keçirildi. Fakültənin professor-müəllim heyəti və tələbələri Vətən müharibəsində qazanılan qələbənin əzəmətini bir daha qeyd etdilər.

Tədbir, fakültənin tələbələrinin ifasında Azərbaycanın müstəqillik rəmzi olan Dövlət Himninin səslənməsi ilə başlanıb. Ardınca, Azərbaycanın çiçəklənməsi uğrunda əvəzsiz xidmətlər göstərmiş Ulu Öndər Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canlarından keçən bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirin rəsmi hissəsində universitet rəhbərliyinin və fakültə dekanının çıxışları dinlənilib. Universitetin humanitar məsələlər üzrə prorektoru, dos. Gülsüm Fətəliyeva “8 noyabr

milli qürur günümüz" mövzusunda çıxış edərək, bu qələbənin hər bir azərbaycanlının qəlbində oyatdığı böyük qürur hissini vurğulayıb. Riyaziyyat və informatika fakültəsinin dekanı, dos. Oruc Hüseynov "Zəfər tariximiz" adlı çıxışında 44 günlük Vətən müharibəsinin tarixi əhəmiyyətindən və qələbənin memarlarının fədakarlığından bəhs edib. Tədbirin bədii hissəsi tələbələrin yüksək vətənpərvərlik ruhunda hazırladıqları çıxışlarla davam edib. Sənət nömrələrində Zəfər ruhu, Qarabağ həsrəti və Vətən sevgisi əksini tapdı:

Amin Məmmədli və Canan Şəmsiyeva tərəfindən ifa olunan "Azərbaycan" rəqsi, fakültə tələbələrindən ibarət xor kollektivi Vətən eşqi ilə dolu "Qarabağ" mahnısı, Hacıyeva Rəbiyyənin ifasında "Turan eli" şeri tədbir iştirakçılarına duyğusal anlar yaşatdı. Aliyə Xəlilova və Amin Məmmədli "Yaşa Azad Azərbaycan" mahnısı ilə birliyin və azadlığın tərənnümçüsü oldular.Tədbirdə Mehralı Hüseynovun tarda ifa etdiyi məşhur "Heyratı" muğamı milli musiqimizin ruhunu salona gətirdi. Mehralı Hüseynov, Ceyran Əliyeva, Nurgün Mirzəzadə, Nuray Quliyeva, Aliyə Xəlilova ibarət vokal qrupunun ifasında "Torpağın səsi" və daha sonra təkrarən səsləndirilən "Yaşa Azərbaycan" mahnıları tədbirin ən yaddaqalan anlarından oldu.

Sonda "Flashmob" rəqsi ilə çıxış edən tələbələr bir daha milli ruhu, dinamizmi və gəncliyin vətənpərvərliyini nümayiş etdirdilər.

Riyaziyyat və İnformatika Fakültəsinin təşkil etdiyi bu tədbir, həm akademik mühitdə, həm də gənc nəslin şüurunda Zəfər tarixinin, şəhidlərin xatirəsinin və Azərbaycançılıq ideologiyasının yaşatılması baxımından mühüm əhəmiyyət kəsb etdi. Tədbir, iştirakçılara bir daha Vətənə olan sevgini, qüruru və gələcəyə inamı aşıladı.

# 8 Noyabr - Zəfər Günümüz mübarək!

Bu gün Müzəffər Ali Baş Komandanımızın qətiyyəti, Qəhrəman Ordumuzun şücaəti və xalqımızın birliyi ilə qazanılmış möhtəşəm Zəfər günüdür.

8 Noyabr - Zəfər Günü Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin, gücünün və qüdrətinin rəmzidir.

Biz bu şanlı Zəfərimizlə hər zaman qürur duyuruq.

Bu Zəfər hər bir azərbaycanlının qəlbində əbədi yaşayacaq









8 NOYABR
ZƏFƏR GÜNÜ

# ADAU-da Zəfər Gününə həsr olunan tədbir keçirilib




Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) 8 Noyabr -Zəfər Günü münasibətilə təntənəli tədbir keçirilib. Əvvəlcə universitet rəhbərliyi və qonaqlar Şəhidlər Xatirə Kompleksini ziyarət edərək, şəhidlərin xatirəsini ehtiramla yad ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və bir dəqiqəlik sükutla başlayıb.

Universitetin rektoru Zəfər Qurbanov tədbir iştirakçılarını Zəfər Günü münasibətilə təbrik edərək bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Qələbə xalqımızın birliyinin, ordumuzun gücünün və dövlətimizin qüdrətinin təntənəsidir. “Bu Qələbə gələcək nəsillər üçün qürur mənbəyi olacaq. ADAU kollektivi şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizlə fəxr edir,” – deyə rektor vurğulayıb.




Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, Türkiyənin Gəncədəki vitse-konsulu Yiğit Yalın Soyal və Vətən Övladları Qazilər və Veteranlar İctimai Birliyinin sədri Mehdi Kərimov çıxışlarında Zəfər Gününün xalqımızın qəhrəmanlığının və qardaşlıq birliyinin simvolu olduğunu qeyd ediblər.

Tədbirdə şəhid ailələri, qazilər, tələbələr və müəllimlər çıxış edərək Zəfərin əhəmiyyətindən, şəhidlərin və döyüşçülərin qəhrəmanlığından danışıblar.

Sonda universitet tələbələrinin hazırladığı bədii proqram nümayiş olunub. “Xarıbülbül” rəqs qrupu, “Sound Nest” vokal qrupu və tələbə ifaçıların təqdimatında vətənpərvərlik ruhunda mahnı və kompozisiyalar tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

# Azərbaycan Texnologiya Universitetində Zəfər Gününə həsr edilmiş konfrans



Azərbaycan Texnologiya Universitetində 8 Noyabr – Zəfər Gününə həsr olunmuş "Elm və texnologiyaların müasir trendləri" adlı Respublika Elmi-Praktik Konfransı keçirilib.
Tədbirdən əvvəl Ümummilli lider Heydər Əliyevin büstü və universitet ərazisində ucaldılmış Şəhidlər abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsilə açıq elan edilib.

Azərbaycan Texnologiya Universitetinin rektoru Yaşar Ömərov giriş sözü ilə çıxış edərək Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızı 30 illik işğaldan azad etməsindən və bu zəfərin qazanılmasında xalq-dövlət-ordu birliyi ilə bərabər yüksək

texnologiyaların rolundan danışıb, işğaldan azad olunmuş ərazilərdə ağıllı kənd, ağıllı şəhər konsepsiyası əsasında aparılan quruculuq işlərində əks olunan müasir texnoloji trendləri vurğulayaraq konfransın mövzusunun aktuallığına diqqət çəkib.

Daha sonra Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində Elm və Ali Təhsil Dövlət Agentliyinin sədri Ülkər Səttarova, Gəncə Dövlət Universitetinin prorektoru, millət vəkili Pərvin Kərimzadə, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya mərkəzinin baş icraçı direktoru Fariz Cəfərov, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Gəncə Regional Turizm İdarəsinin direktoru Zaur Bayramov, "AzerGold" QSC-dən Valid Əliyev, Azərbaycan Respublikası Kosmik Agentliyin nümayəndəsi Aytən Zeynallı çıxış edərək konfransın işinə uğurlar arzulayıblar.

Konfransın plenar iclasında strateji inkişaf və rəqəmsallaşma üzrə müşavir Mehman Kərimovun təqdimatında "Sinerji və Tərəqqi: Universitet-Elm-Texnologiya-Sənayedə qarşılıqlı inkişaf trendləri" mövzusunda, Yüngül sənaye mühəndisliyi və dizayn kafedrasının dosenti, sənaye dizaynı üzrə elmlər doktoru İmaş Hacıyevin təqdimatında "Müasir dövrdə elm və texnologiyaların inkişafında dizaynın rolu" mövzusunda məruzələr dinlənilib.

# Bitki Mühafizə və Texniki Bitkilər ETİ-də Zəfər Gününün 5 illiyi qeyd olunub



Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun kollektivi rəhbər İbrahim Cəfərovun başçılığı ilə 8 Noyabr - Zəfər Gününün 5 illiyini qeyd edib.

Tədbir əvvəlcə Şəhidlər xiyabanında şəhidlərimizin xatirəsinin anılması ilə başlayıb. İnstitutun əməkdaşları Vətən uğrunda canından keçən qəhrəmanlarımızın məzarlarını ziyarət edib, onların ruhuna dualar oxuyub və məzarları üzərinə gül-çiçək qoyublar.

Anım mərasimindən sonra tədbir institutun akt zalında davam etdirilib. Burada çıxış edən institutun direktoru, kənd təsərrüfatı elmləri doktoru İbrahim Cəfərov bu əlamətdar günün Azərbaycan xalqı üçün tarixi və mənəvi dəyərindən danışıb. İbrahim müəllim qeyd edib ki, 8 Noyabr xalqımızın milli qürur və birliyinin, dövlətimizin qüdrətinin və Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyinin təntənəsidir:



"Bu qələbə təkcə hərbi deyil, həm də mənəvi zəfərimizdir. Şəhidlərimizin qanı, xalqımızın birliyi və Ordumuzun şücaəti nəticəsində Qarabağ torpaqları azad olundu. Biz bu günü qürurla qeyd edir, qəhrəman oğullarımızın ruhu qarşısında baş əyirik."

Tədbirdə çıxış edən digər iştirakçılar da Azərbaycanın əldə etdiyi bu möhtəşəm Qələbənin dövlət-xalq-ordu birliyinin nəticəsi olduğunu vurğulayıblar. Bildirilib ki, bu Zəfər ölkəmizin tarixində yeni bir mərhələnin əsasını qoyub və gələcək nəsillər üçün böyük bir qürur mənbəyidir. Çıxışlarda şəhid və qazilərimizin göstərdiyi qəhrəmanlığın unudulmaz olduğu, onların xatirəsinin hər zaman uca tutulacağı qeyd olunub. Sonda tədbir iştirakçıları Zəfər Gününün beşinci ildönümü münasibətilə xalqımıza sülh, əmin-amanlıq və firavanlıq arzularını ifadə ediblər.

# Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin təhsil müəssisələrində 8 Noyabr - Zəfər Gününün 5-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirilib



Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində 8 Noyabr – Zəfər Gününün beşinci ildönümü münasibətilə genişmiqyaslı silisilə vətənpərvərlik tədbirləri təşkil olunub.

Tədbirlər çərçivəsində təhsil müəssisələrində seminarlar, dəyirmi masalar, foto və rəsm sərgiləri keçirilib.

Şagirdlərin Gəncə Memorial Kompleksinə ekskursiyaları da Zəfər Gününə həsr olunmuş tədbirlər planının bir hissəsi olub. Bu səfərlər zamanı şagirdlərə Vətən müharibəsi tarixi, şəhidlərin qəhrəmanlıq yolu və xalqımızın qələbə ruhu haqqında ətraflı məlumat verilib.

Tədbirlərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi dərin ehtiramla yad edilib. Məktəblilər onların igidliyini əks etdirən şeirlər, çıxışlar və təqdimatlarla çıxış ediblər.

Tədbirlərin əsas məqsədi - gənc nəslin milli-mənəvi dəyərlərlə yetişdirilməsi, Zəfər tarixinin unudulmaması və qəhrəmanlıq salnaməsinin gələcək nəsillərə ötürülməsidir. Noyabr - Zəfər Günü münasibətilə "Tarixi Zəfər" adlı tədbir təşkil olunub.



Noyabr - Zəfər Günü münasibətilə "Tarixi Zəfər" adlı tədbir təşkil olunub.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açıq elan olunub, Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə çıxış edən Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin müdir müavini vəzifəsini icra edən Elmin Məmmədtağıyev Vətən müharibəsində qazanılan tarixi Qələbənin gənc nəslin vətənpərvər ruhda tərbiyə olunmasında mühüm rol oynadığını vurğulayıb. O, bu kimi tədbirlərin milli şüurun möhkəmləndirilməsi baxımından əhəmiyyətindən bəhs edib.



Tədbirdə Gəncə şəhər Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvləri, M.Mehdizadə adına 4 nömrəli məktəb-liseyin, 17 nömrəli tam orta və M.Füzuli adına 22 nömrəli tam orta məktəbin şagirdləri tərəfindən qələbə ruhlu mahnılar və bədii kompozisiyalar təqdim olunub.

Tədbirin davamında Vətən müharibəsində əsgər və zabitlərimizin qəhrəmanlıqlarını, xalqımızın birliyini və Qələbəyə inamını əks etdirən film nümayiş etdirilib. “Yaşa Azərbaycan” mahnısının ifası ilə yekunlaşan tədbir Zəfər ruhu, vətən sevgisi və milli qürur ab-havasında yekunlaşıb.

Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin müəllim və şagird kollektivi tərəfindən 8 Noyabr - Zəfər Günü münasibətilə anım səfərləri təşkil olunub. Gəncə Memorial Kompleksinə ziyarətlər edilir və dərslər keçirilir.

Zəfər Günü münasibətilə təşkil olunan səfərlərin məqsədi 44 günlük Vətən müharibəsində canından keçmiş şəhidlərimizin

xatirəsini yad etmək, şagirdlərdə vətənpərvərlik ruhunu gücləndirmək və qəhrəmanlıq salnaməmizi gənc nəslə daha yaxından tanıtmaqdır.




Bu səfərlər şəhidlərin əziz xatirəsinə ehtiramın ifadəsi olmaqla yanaşı, yeni nəslin Vətənə sevgi və bağlılığının möhkəmləndirilməsinə xidmət edir



# ETİHİ Gəncə şəhər Komitəsinin təşkilatşılığı iıə 8 Noyabr - Zəfər Günü münasibətilə silsilə tədbirlər keçirib



**8 Noyabr - Zəfər Günündə şəhid ailələri ehtiramla yad edilib.**

Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Gəncə şəhər Komitəsinin rəhbərliyi 8 Noyabr - Zəfər Günü münasibətilə Vətən müharibəsi şəhidlərimiz İsmayılov Rabil Elbrus oğlunun və Yusifov Taleh Gündüz oğlunun ailələrini ziyarət edib.

Ziyarət zamanı şəhid ailələrinə başsağlığı diləyərək onların qəhrəman övladlarının Vətən uğrunda göstərdikləri igidlik və fədakarlıq minnətdarlıqla xatırlanıb.

44 günlük Vətən müharibəsində canlarından keçərək bizə bu zəfəri yaşadan bütün şəhidlərimizin ruhu qarşısında baş əyir, onlara Allahdan rəhmət diləyirik.

# Onların qəhrəmanlığı xalqımızın qəlbində daim yaşayacaq!



ETİHİ Gəncə şəhər Komitəsinin rəhbərliyi Gəncə şəhəri İnterqasiya Təlimli İnternat Tipli Gimnaziyada keçirilən 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbirdə iştirak edib.

Tədbirdə 44 günlük Vətən müharibəsində qəhrəmanlıq göstərən şəhidlərimizin xatirəsi ehtiramla anılıb, onların Vətən uğrunda göstərdikləri şücaət və fədakarlıqdan bəhs olunub. Şəhid valideynlərinin iştirakı tədbirə xüsusi mənəvi dəyər qatıb.

Şagirdlərin ifasında səslənən vətənpərvərlik ruhlu şeirlər, mahnılar və səhnəciklər qürur dolu anlar yaşadıb. Qazilərimizin döyüş yolu və igidlikləri gənclər üçün bir örnək kimi dəyərləndirilib.



Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Gəncə şəhər Komitəsinin rəhbərliyi 8 Noyabr - Zəfər Günü münasibətilə 44 günlük Vətən müharibəsində şücaətlə vuruşmuş Gəncə şəhərinin qazilərini qəbul edib.

Görüş zamanı qazilərimizə dərin hörmət və minnətdarlıq ifadə olunub, onların Vətən qarşısında göstərdikləri igidlik və fədakarlıqlardan bəhs edilib. Qazilərimizin keçdiyi döyüş yolları, onların nümayiş etdirdiyi vətənpərvərlik ruhu gənclərimiz üçün bir nümunə kimi dəyərləndirilib.

Tədbirdə həmçinin Vətən uğrunda canından keçmiş şəhidlərimizin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Bu kimi görüşlər qəhrəmanlarımızın fədakarlığını gənc nəsillərə çatdırmaq və onların qələbə ruhunu yaşatmaq baxımından mühüm əhəmiyyət daşıyır.



ETİHİ Gəncə şəhər Komitəsinin rəhbərliyi, Gəncə şəhər İdman Liseyində keçirilən “8 Noyabr - Zəfər Gününə” həsr olunmuş tədbirdə iştirak edib. Tədbir şəhid ailələrinin və qazilərimizin iştirakı ilə xüsusi bir ruhda, qürur və minnətdarlıq hissi ilə keçdi.





.

# Gəncə İdman Liseyində "8 Noyabr - Zəfər Günü"nə həsr olunmuş tədbir



Gəncə İdman Liseyində "8 Noyabr – Zəfər Günü"nə həsr olunmuş tədbir keçirilib.

Tədbir şəhid ailələrinin və qazilərin iştirakı ilə xüsusi bir ruhda, qürur və minnətdarlıq hissi ilə keçdi.

Liseyin direktoru Mühman Allahverdiyev çıxış edərək tədbir iştirakçılarını, şəhid ailələrini, müharibə iştirakçılarını və əlillərini salamlayıb, 8 Noyabr – Zəfər Günü münasibətilə hər birini təbrik edib, xoş arzularını çatdırıb. Öncə dəvəti qəbul edib bayram tədbirinə gəldiklərinə görə şəhid ailələrinə və qazilərə minnətdarlığını bildirib. Bu gün xalqımızın Azərbaycanın şanlı səhifələrindən olan Zəfər Gününü qürurla, 30 illik həsrətdən sonra doğma torpaqları azad edilən ölkənin vətəndaşı olaraq qeyd etdiyimizi vurğulayıb. Bu şanlı Zəfərə, tarixi Qələbəyə görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə, onun rəhbərliyi altında torpaqlarımızı azad edən

oğullarımıza, canlarını Vətən üçün fəda edən şəhidlərimizə, sağlamlığını itirən qazilərimizə minnətdar olduğumuzu söyləyib. Birinci Qarabağ müharibəsi, Aprel döyüşləri, İyul döyüşləri, 44 günlük Vətən müharibəsində, eləcə də sentyabrın 12-dən 13-nə keçən gecə sərhəddə düşmən təxribatının qarşısını alan zaman şəhid olan qəhrəman oğullarımızın heç zaman unudulmayacağını bildirib.



Mehman müəllim qeyd edib ki, bugünkü bayram tədbirinin təşkil olunmasında əsas məqsədin şəhidlərimizə olan hörmət və ehtiramı bir daha göstərmək, daim şəhid ailələrinin, qazilərimizin yanlarında olduğumuzu çatdırmaqdır.

Tədbir liseyin şagirdlərinin hazırladığı möhtəşəm konsert proqramı ilə davam edib, ifa etdikləri mahnılar tədbirə toplaşanlara xoş anlar yaşadıb.

Tədbirdə çıxış edən qonaqlar qəhrəmanlarımızın fədakarlığı sayəsində bu torpaqlarda qalib xalqın övladları kimi yaşadığımızı qeyd etdilər.

# Vətənpərvərlik tərbiyəsi həmişə tələb olunur



Vətənpərvərlik tərbiyəsi həmişə tələb olunur. Ənənəvi olaraq o, ölkədəki siyasi, iqtisadi və sosial şəraitdən obyektiv asılı olan təhsil prosesinin zəruri komponenti kimi qəbul edilir. Buna görə də vətənpərvərlik tərbiyəsi problemi vətənpərvərlik tərbiyəsi anlayışının özü və şagirdlərlə işin üsullarını, vasitələrini və formalarını müəyyən edən məzmununa görə pedaqogikada ən mürəkkəb problemlərdən biridir.

Şagirdlərin vətənpərvər kimi yetişdirilməsi məqsədi ilə bütün təhsil və tərbiyə prosesinin onlara məqsədyönlü təsiri bütün məktəb tədris prosesinin strateji xəttini təşkil edir. Vətənpərvərlik ruhlu tədbirlərin təşkilinin ənənəvi formaları ilə birlikdə vətənpərvərliyin əsaslarının aşılanması problemi bədən tərbiyəsi dərslərində və sinifdənkənar məşğələlərdə açıq hava və idman oyunları, yarışlar vasitəsilə uğurla həll oluna bilər. Öz xüsusiyyətlərinə görə idman və bədən tərbiyəsi böyük təhsil potensialına malikdir. Onlar şəxsiyyətin vətəndaş şüuru və vətənpərvərlik kimi ideoloji əsaslarını inkişaf etdirən ən güclü

mexanizmlərdən biridir. İdman da bir təlim-tərbiyə vasitəsi kimi vətənpərvərlik tərbiyəsinin tərkib hissəsi hesab olunur. Bədən tərbiyəsi və idman həm də xəstəliklərin qarşısının alınması, sağlamlığın möhkəmləndirilməsi və yüksək göstəricilərin qorunmasının ən təsirli vasitələrindəndir.

Məktəblərdə vətənpərvərlik tərbiyəsi müxtəlif kütləvi iş formaları vasitəsilə həyata keçirilir:

Bədən tərbiyəsi dərsləri və sinifdənkənar məşğələlər məktəblilərdə əxlaqi və iradi keyfiyyətləri - qətiyyət, cəsarət, əzmkarlığı inkişaf etdirir. Onlar əxlaqi inancların, davranış qaydalarına ciddi riayət etmək vərdişinin və ləyaqətsiz davranışlara dözümsüzlüyün formalaşmasına kömək edir. Onlar həm də vətənpərvərlik hissini, qrup qarşısında öz hərəkətlərinə görə məsuliyyəti və nizam-intizamı tərbiyə edir.

İdman məşğələləri təkcə şagirdlərin təşkilatlanması vasitəsi deyil, həm də kollektiv fəaliyyət bacarıqlarının, düzgün duruşun, təşkilatın, nizam-intizamın, ritm hissi və digər keyfiyyətlərin inkişaf etdirilməsi vasitəsidir. Fiziki məşqlər hərəkətə marağı artırır, fiziki bacarıqları artırır, oynaqlarda elastiklik və hərəkətliliyi inkişaf etdirir, sağlamlığı gücləndirir.

Şagirdlərdə vətənpərvərlik tərbiyəsində fəal oyunların və estafet yarışlarının digər tərbiyə vasitələri və metodları ilə birgə istifadəsi yüksək effekt verir.

Oyun zamanı uşaqlar bütün iştirakçılar üçün məcburi olan qaydalara uyğun hərəkət edirlər. Bu qaydalar oyunçuların davranışını tənzimləyir və qarşılıqlı yardım, komanda işi, dürüstlük və nizam-intizamı təşviq edir. Onlar həmçinin güclü iradə gücünü - dözümlülük, cəsarət, qətiyyət və mənfi emosiyaların öhdəsindən gəlmək bacarığını inkişaf etdirirlər.

İdman dözümlülük və iradənin inkişafına kömək edir. Fərdi, qrup və ya sinifdə maneələri dəf etmək qarşılıqlı yardımı və çətinlikləri dəf etmək bacarığını öyrədir.

Fiziki bacarıqların inkişafı gəncləri hərbi xidmətə hazırlamağa kömək edir. Məktəblərdə ənənələrdən biri də məktəbdaxili idman yarışlarının keçirilməsidir.

Bu yarışların keçirilməsində məqsəd şagirdləri müntəzəm bədən tərbiyəsi və idmana cəlb etmək, hərtərəfli şəxsi inkişafa təkan vermək, sağlam həyat tərzini təbliğ etmək, məktəbin ən yaxşı idmançılarını üzə çıxarmaq, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsini gücləndirməkdən ibarətdir. Bu yarışlarda iştirak şagirdlərin həmrəyliyini gücləndirir, onların ünsiyyət bacarıqlarını artırır, iradə, özünə nəzarət, özünütəşkiletmə, nizam-intizam, təmkin və qarşılıqlı dəstək kimi keyfiyyətləri inkişaf etdirir.

Hərbi xidmətin və tətbiqi idmanın təbliğinə yönəlmiş tədbirlər vətənpərvərlik tərbiyəsi baxımından böyük əhəmiyyət kəsb edir.

Orta təhsil ocaqlarında idman yarışları məktəblilər arasında sağlam həyat tərzini təbliğ etmək, müsbət münasibəti inkişaf etdirmək, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsini inkişaf etdirmək məqsədi ilə keçirilir. Bu, şagirdlərin təşkilati cəhətdən möhkəmlənməsinə müsbət təsir göstərir, uşaqların ictimai fəallığının inkişafına təkan verir, gələcək əsgərlər və Vətən müdafiəçiləri üçün zəruri olan keyfiyyətləri inkişaf etdirir. Şagirdlər arasında sağlam həyat tərzinin təbliği, onların sağlamlığının qorunub saxlanmasına şərait yaradılması, dərslərdə və dərsdənkənar saatlarda sağlamlığa faydalı texnologiyalardan istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Sağlam gənc güclü Azərbaycan deməkdir!

Yeniyetmə və gənclərin idmana olan meylinin gücləndirilməsi onların vətəndaşlıq və vətənpərvərlik tərbiyəsində, sağlamlığının qorunmasında mühüm amillərdən biri kimi qiymətləndirilir.

Torpağı, xalqını sevən, vətənin müdafiəsinə hazır olan insan yetişdirmək çox çətin işdir. Amma biz pedaqoqlar bunu sevgi və mehribanlıqla həyata keçirir və şübhəsiz ki, nail olmaq oluruq.

Gənclər tək biliklə doldurulacaq qab deyil, həm də gələcəkdə alovlanacaq məşəldir! Bu gün gənclərimizə nə aşılasaq, sabah onu Vətənimizə verəcəkdir...

***Mehman Allahverdiyev, Gəncə İdman Liseyinin direktoru, Azərbaycan Respublikasının Əməkdar məşqçisi, Respublikanın Fəxri Bədən Tərbiyəsi və Fəxri İdman işçisi.***

# “Təhsil” RİM PHŞ Gəncə şəhər 1 nömrəli UGİŞM-də Zəfər Günü



Şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsində idmanın da rolu böyükdür. Hər şeydən əvvəl, idman komandaları tərbiyə sisteminin qarşıya qoyduğu, demək olar ki, bütün vəzifə bə tapşırıqları kompleks şəkildə yerinə yetirir. Bu oyunlar öz tərbiyəvi əhəmiyyəti ilə digər tərbiyəvi vasitələr arasında seçilir.

İdman şagirdlər arasında ən sevimli məşğuliyyət formasıdır. Təcrübədə şagirdlərin fiziki və hərbi-vətənpərvərlik tərbiyəsində şagirdlərin idmana olan həvəsinin, idmanla məşğul olmanın əhəmiyyəti və şagirdlər arasnda populyarlığını hamı bilir. İdman şagirdlərdə vətənin müdafiəçisi olacaq gələcək əsgərlər üçün lazım olan bir çox keyfiyyətləri formalaşdırır. Bütün bunlara əsaslanaraq deyə bilərik ki, hərbi-vətənpərvərlik tərbiyəsində idman da vacib rol oynamaqdadır. Pedaqoqlar məktəblilərlə hərbi-vətənpərvərlik işini bu

istiqamətdə qurur, gənc nəslə təcrübədən keçmiş üsullarla dövlətimizin əbədiliyini və gücünü təlqin edirlər.



“Təhsil” RİM PHŞ Gəncə şəhər 1 nömrəli UGİŞM-in təqvim planına uyğun olaraq "8 Noyabr-Zəfər Günü" münasibətilə Gəncə şəhər 2010/2019-cu il (6 yaşdan - 15 yaş arası) təvəllüdlü idmançılar arasında karate idman növü üzrə daxili birincilik keçirilib.

Birincilik dövlət himnimizin səsləndirilməsi ilə açıq elan olunub.Torpaqlarımızın azadlığı və suverenliyi uğrunda canlarından keçmiş vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edənlər yarış iştirakçılarına və idmançılara müzəffər ordumuzun şücaətindən, əsgərlərimizin qəhrəmanlığından ətraflı məlumat veriblər. Sonra birinciliyə start verilib.

Birincilikdə məktəbimizin 4 komandası ilə bərabər qonaq qismində dəvət olunmuş Ucar,Bərdə,Şəmkir rayonlarının komandalarından ümumilikdə 114 idmançı mübarizə aparıb.

Yekunda qalib idmançılar fəxri fərman və medallarla təltif edilib.

# Cəmiyyət bu tərbiyəyə daha çox üstünlük verməlidir



Bütün xalqlarda vətənpərvərlik hər bir insanda olmalı bir hiss kimi başa düşülür və qəbul edilir. Azərbaycan xalqı da öz vətənpərvərliyi ilə seçilir. Biz vətənpərvər kimi böyümüşük, gənclərimizi də əsl vətənpərvər vətəndaş kimi tərbiyə edirik. Bu, biz pedaqoqların tək vəzifə borcu deyildir, həmçinin vətəndaş borcumuzdur. Həm pedaqoq, həm də vətəndaş kimi səmimi qəlbdən gördüyümüz işlərin mükafatı uşaq qəlblərində oyanan vətənpərvərlik hissləridir. Milli dəyərlərin təbliği də bu hisslərin tərbiyə olunmasında əsas rola malikdir və bu dəyərlərin qorunması elə vətənin keşiyində layiqincə durmaq kimi şərəfli bir iş sayılır.

Şagirdlərin vətənpərvərlik tərbiyəsi həmçinin, ümumtəhsil müəssisələrinin ən vacib təlim-tərbiyə proseslərindən biri sayılır. Müasir məktəblər təhsil alanların vətəndaş-vətənpərvər tərbiyəsinin qarşıya qoyduğu həyati vacibli məsələlərin həlli üçün bütün addımları atır. Bu tərbiyə istər tədrisdə, istərsə də, sinifdənxaric və məktəbdənkənar işlər zamanı yüksək çoşğunluqla həyata keçirilir.

Vətənpərvər vətəndaş tərbiyəsi bütün xalqlarda və cəmiyyətlərdəən çox diqqət çəkən bir prosesdir. Bu gün təmsil etdiyimiz cəmiyyət bu tərbiyəyə daha çox üstünlük verməlidir. Bu, günümüzün əsas tələblərindən biridir.

Yeniyetmə və gənclərin vətənpərvər vətəndaş tərbiyəsi həmişə orta məktəblər qarşısında duran ən vacib işlərdən sayılmışdır. Məktəb aşağı siniflərdən başlayaraq şagirdlərdə bu hissləri formalaşdırır, onlar tədricən öz vətənlərini sevməyi, onun keçmişi və bu günü ilə fəxr etməyi, xalqına hörmət və məhəbbət hissləri bəsləməyi öyrənir, onlarda fəal vətəndaş mövqeyi formalaşdırılır. Bütün bu hisslər şagirdlərə dərslərdə, dərsdənkənar işlərdə və ictimai işlərdə fəaliyyət zamanı aşılanır.

Bu sahə ilə bağlı fəaliyyət bütöv bir sistem şəklindəhəyata keçirilməkdədir.Təhsil ocaqlarında ekskursiyalar, olimpiadalar, ekoloji fəaliyyət, dərnəklər, iməcliklər kimi təlim-tərbiyə formaları, məktəbdəki muzeylər, tematik stendlər, şagird kollektivlərinin təşkili və onlara rəhbəlik, toplantılar, yığıncaqlar, görüşlər, fərdi iş formaları kimi məsləhətləşmə, söhbətlər, tapşırıq və göstərişlərin yerinə yetirilməsi və s. bu sistemin tərkib hissələridir.

Vətənpərvər vətəndaş tərbiyəsinin formalaşdırılmasında bir çox müvafiq fəaliyyət formalarının təşkilinə də yer verilir. Bütün bunlar sözsüz ki, bu tərbiyənin səviyyəsinin artırılmasına öz töfhəsini verir.

Şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsində idmanın da rolu böyükdür. Hər şeydən əvvəl, idman komandaları tərbiyə sisteminin qarşıya qoyduğu, demək olar ki, bütün vəzifə bə tapşırıqları kompleks şəkildə yerinə yetirir. Bu oyunlar öz

tərbiyəvi əhəmiyyəti ilə digər tərbiyəvi vasitələr arasında seçilir.

İdmanşagirdlər arasında ən sevimli məşğuliyyət formasıdır. Təcrübədə şagirdlərin fiziki və hərbi-vətənpərvərlik tərbiyəsindəşagirdlərin idmana olan həvəsinin, idmanla məşğul olmanınəhəmiyyəti və şagirdlər arasnda populyarlığını hamı bilir.

İdman şagirdlərdə vətənin müdafiəçisi olacaq gələcək əsgərlər üçün lazım olan bir çox keyfiyyətləri formalaşdırır. Bütün bunlara əsaslanaraq deyə bilərik ki, hərbi-vətənpərvərlik tərbiyəsində idman da vacib rol oynamaqdadır. Hərbi-vətənpərvərlik tərbiyəsi vətənpərvərlik tərbiyəsi ilə sıx bağlı olduğundan cəmiyyətimiz bu gün yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsində bu sahədə biz pedaqoqlar qarşısında ciddi vəzifələr qoyur. Bu vəzifələr gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin əhəmiyyətini daha da artırır. Axı Vətənimizin güclü və bacarıqlı müdafiəçilərinin hazırlanması işinə, bir çox hallarda həlledici töfhəni məhz bu vəzifələrin düzgün icrası verəcəkdir.

Şagidlər idman dərslərində,idman məktəblərində keçirilən məşqlərdə, eyni zamanda idman oyunlarındaiştirakı ilə hələ Milli Orduya çağırılmazdan əvvəl Vətənin müdafiəçilərinə lazım olan keyfiyyətlərə yiyələnir, dözümlülük, iradə, əzm, qətiyyət, qələbə çalmaq əzmi və s. kimi bir sıra lazımi məlumatları təcrübədə qazanmış olurlar. Bununla birlikdə, hərbi-vətənpərvərlik tərbiyəsi gənclərimizi vacib mənəvi-psixoloji keyfiyyətlərlə silahlandırır. Bu keyfiyyətlər vətənin gələcək müdafiəçiləri kimi, dinc dövrün insanlarına da lazımdır.

Göründüyü kimi, vətənin gələcək müdafiəçilərinin hazırlığı işi biz pedaqoqlar qarşısında duran məsuliyyətli və ciddi vəzifələrdəndir. Hər bir müəllim öz sahəsində müasir şagirdlərə bütün mövcud metod və vasitələrlə vətənpərvərlik hisslərini aşılamalı, onları Azərbaycanın ərazi bütövlüyünü gələcəkdə layiqincə qorumağa, doğma Vətəninə, Dövlətinə, Milli Orduya məhəbbət ruhunda yaşayıb yaratmağa çağırmalıdır.

Biz pedaqoqlar məktəblilərlə hərbi-vətənpərvərlik işini bu istiqamətdə qurur, gənc nəslə təcrübədən keçmiş üsullarla dövlətimizin əbədiliyini və gücünü təlqin edirik. Məktələrimizdə vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsi işi tədris ili boyunca lazımı səviyyədə aparılır və öz müsbət nəticələrini verir. Görülən bütün işlər son nəticələrə - öz vətəninin vətənpərvərləri olacaqyeniyetmə və gənclərin vətəndaş tərbiyəsinə istiqamətlənib.

**Ramil Qasımov, Gəncə şəhər 1 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktoru, Paraolimpiya çempionu, Şöhrət ordenli.**

# Mehdi Mehdizadə adına 4 nömrəli xarici dil təmayüllü məktəb-liseydə Zəfər Günü



Gənc nəslin vətənpərvər ruhda tərbiyəsi təhsildə prioritet tələbdir. 44 günlük Vətən müharibəsi Azərbaycanın dövlətçilik tarixində xüsusi bir hadisədir. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan ordusu itirdiyimiz torpaqları özümüzə qaytardı. Burada Azərbaycan igidləri yalnız silah və texnika gücü ilə deyil, eyni zamanda, şəxsi şücaətləri ilə yadda qaldı. Qəlbi vətən eşqi ilə yanan mərd oğullarımız şanlı tariximizə öz qanları ilə yeni qələbə yazdılar.

Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim diqqət mərkəzindədir. Bu, ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən hesab olunur. Həmin sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın

geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir.

Mehdi Mehdizadə adına 4 nömrəli xarici dil təmayüllü məktəb-liseyin hərbi rəhbəri Elçin Qurbanov və təşkilatçı müavini Ayna Tağıyeva, məktəbin 10 "E" sinfinin şagirdləri ilə Şəhidlər xiyabanını ziyarət ediblər.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi hörmət və ehtiramla yad edilib, məzarları üzərinə qərənfillər düzülüb.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 44 günlük Vətən müharibəsində ordumuzun gücü ilə tarix yazdı. Xalqımızı öz milli hədəflərinə çatdırdı, Azərbaycan dövləti ən yüksək zirvəsinə ucaldı, ən güclü dövrünə yetişdi. Qazanılan Zəfər möhtəşəm və qürurludur.

Mehdi Mehdizadə adına 4 nömrəli xarici dil təmayüllü məktəb-liseyin VII "Z" sinfi məktəbin təşkilatçı müavini Tağıyeva Ayna Nəsrəddin qızının təşkilatçılığı ilə təqvimimizin qızıl hərflərlə yazılmış tarixi Zəfər bayramını qeyd edib.

Mehdi Mehdizadə adına 4 nömrəli xarici dil təmayüllü məktəb-liseyin tarix müəllimləri 8 Noyabr Zəfər Günü münasibətilə xüsusi dərslər keçiriblər. Dərsin məqsədi şagirdlərə Azərbaycanın müstəqillik tarixi, ərazi bütövlüyü haqqında dərin məlumat vermək olub.

Dərs boyunca şagirdlərə 44 günlük Vətən müharibəsinin tarixi əhəmiyyəti, Zəfər Günü və bu günün xalqımız üçün xüsusi mənası izah edilib.



Mehdi Mehdizadə adına 4 nömrəli xarici dil təmayüllü məktəb-liseyin hərbi rəhbəri Elçin Qurbanov tərəfindən məktəbin 10 "B" sinfində 8 Noyabr Zəfər Günü münasibətilə xüsusi dərs keçirilib. Dərsin məqsədi şagirdlərə Azərbaycanın

müstəqillik tarixi, ərazi bütövlüyü haqqında dərin məlumat vermək olub.



Dərs boyunca şagirdlərə 44 günlük Vətən müharibəsinin tarixi əhəmiyyəti, Zəfər Günü və bu günün xalqımız üçün xüsusi mənası izah edilib.

Şagirdlərin vətənpərvərlik tərbiyəsi üzrə aparılan işlərin daha intensiv xarakter alması, bu sahədə həyata keçirilən tədbirlərin davamlılığının təmin olunması, şagirdlərdə fəal vətəndaş mövqeyi və doğma torpağa sədaqət hissinin formalaşdırılması məqsədilə rəhbərlik etdiyim Gəncə şəhəri, M.Mehdizadə adına 4 nömrəli xarici dil təmayüllü məktəb-liseydə geniş ölçüdə işlər aparılmaqdadır və bu, bütün tədris ili boyu davam edir.

Gənclərin ideoloji baxımdan hazırlığı, düşünülmüş ardıcıl gənclər siyasətinin nəticəsidir. Danılmaz faktdır ki, məktəblərimizdə təbliğ edilən vətənpərvərlik ideyaları gənclərdə fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik kimi ən ülvi hissləri aşılayır.

# Yeniyetmə və gənclərimizin vətənpərvərlik tərbiyəsi



Ulu Öndər Heydər Əliyev vətənpərvərlik hisslərini yüksək qiymətləndirərək demişdir: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq,inkişaf etdirmək və təbliğ etməkdir". Gənc nəslin vətənpərvər ruhda tərbiyəsi təhsildə prioritet tələbdir və bu şəkildə də müəyyənləşdirilməlidir. Ölkəmizdə vətənpərvərlik tərbiyəsinin aşılanması üçün kifayət qədər imkanlar var. Çünki Azərbaycanı dünyaya tanıdan dövlət xadimlərinin, ziyalılarının nümunələri də gənc nəsl üçün bir tərbiyə məktəbidir. Bu bir həqiqətdir ki, biz şanlı tariximizdə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr etmişik. Şah İsmayıl Xətai, Babək, Mehdi Hüseyinzadə, Həzi Aslanov və yüzlərlə belə igid sərkərdələrimizin şəxsi nümunəsi əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır və bu xalq minlərlə qəhrəman,vətənpərvər yetişdirib.

Gənc nəslin vətənpərvər ruhda tərbiyəsi təhsildə prioritet tələbdir və bu şəkildə də müəyyənləşdirilməlidir. 44 günlük Vətən müharibəsi Azərbaycanın dövlətçilik tarixində xüsusi bir hadisədir. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan ordusu itirdiyimiz torpaqları özümüzə qaytardı. Burada Azərbaycan igidləri yalnız silah və texnika gücü ilə deyil, eyni zamanda, şəxsi şücaətləri ilə yadda qaldı. Qəlbi vətən eşqi ilə yanan mərd oğullarımız şanlı tariximizə öz qanları ilə yeni qələbə yazdılar.

Vətənpərvərlik tərbiyəsində hər bir gəncin doğulub, boya-başa çatdığı ailənin də böyük rolu vardır. Gənclərin bir vətəndaş kimi yetişməsində ailənin, cəmiyyətin, ümumilikdə, mühitin rolu böyükdür. Vətənpərvərlik tərbiyəsinin mənbəyi ailədir. Gənclər bir insan, vətəndaş kimi ilk tərbiyəni ailədən alır. Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır. Təcrübə göstərir ki, ailədə vətənpərvərlik tərbiyəsi yalnız özbaşına, kor-koranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Uşaqlara vətən sevgisi aşılamaq üçün ilk növbədə valideynlər o ruhda olmalıdırlar.

Son dövrlərdə gənclərimizin vətənpərvərlik tərbiyəsinə diqqət daha da artırılmışdır. Təhsil müəssisələrinin qarşısında gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması üçün müəyyən vəzifələr qoyulmuşdur. Bu məqsədə çatmaq üçün məktəb və ailə uşaqlarda vətənə, xalqa məhəbbət hissi tərbiyə etməklə yanaşı, onlarda vətən qarşısında şərəf və borc hissini də qüvvətləndirilməlidir.

Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim

diqqət mərkəzindədir. Bu, ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən hesab olunur. Həmin sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir. Bu məqsədlə aidiyyəti qurumlarla birgə vətənpərvərlik tərbiyəsi üzrə aktual məsələlərə həsr olunmuş müşavirələrin, konfransların, "Dəyirmi masa"ların, mədəni-kütləvi və digər tədbirlərin təşkilinə böyük üstünlük veririk.

Yeri gəlmişkən, bir məqamı da qeyd etmək yerinə düşər ki, bəzən "Gənclərin çağırışaqədərki hazırlığı" fənninin ümumi təhsil məktəblərində daha aşağı siniflərdən tədris olunması ilə bağlı fikirlər səsləndirilir. Əslində, ümumtəhsil məktəblərində fənlərin hər birinin məhz hansı sinifdən başlanması şagirdlərin yaş, fizioloji, psixoloji və qavrama səviyyəsi nəzərə alınmaqla elmi-pedaqoji cəhətdən əsaslandırılıb, müəyyən edilmişdir. Adından da göründüyü kimi, bu fənn şagirdlərin ordu sıralarında hərbi xidmətə çağırış öncəsi hazırlığını təmin etməyə yönəlmişdir və təhsilalanların vətənpərvərlik tərbiyəsində özünəməxsus yeri vardır. Lakin vətənpərvərlik duyğularının aşılanması, gənclərin bu ruhda tərbiyəsi yalnız bu fənnin vəzifəsi deyildir. Belə ki, bütün fənlərin tədrisində, xüsusilə də humanitar-ictimai fənlərin tədrisində vətənpərvərlik tərbiyəsinin aşılanması üçün kifayət qədər imkanlar vardır.

Şagirdlərin vətənpərvərlik tərbiyəsi üzrə aparılan işlərin daha intensiv xarakter alması, bu sahədə həyata keçirilən tədbirlərin davamlılığının təmin olunması, şagirdlərdə fəal vətəndaş

mövqeyi və doğma torpağa sədaqət hissinin formalaşdırılması məqsədilə rəhbərlik etdiyim Gəncə şəhəri, M.Mehdizadə adına 4 nömrəli xarici dil təmayüllü məktəb-liseydə geniş ölçüdə işlər aparılmaqdadır və bu, bütün tədris ili boyu davam edir.

Hər bir dövlətin varlığı və gələcəyi, həm də gənclərin tərbiyəsindən aslıdır. Gənclərin ideoloji baxımdan hazırlığı, düşünülmüş ardıcıl gənclər siyasətinin nəticəsidir.Cəmiyyəti inkişaf etdirən, irəli aparan vətəndaşlar məktəblərimizdə tərbiyə alır və formalaşır. Danılmaz faktdır ki, məktəblərimizdə təbliğ edilən vətənpərvərlik ideyaları gənclərdə fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik kimi ən ülvi hissləri aşılayır.

***Əliağa Səfərəliyev, Gəncə şəhəri, M.Mehdizadə adına 4 nömrəli xarici dil təmayüllü məktəb-liseyin direktoru, Respublikanın Əməkdar müəllimi*.**

# Zəfər Gününə həsr olunmuş möhtəşəm tədbir




Orta təhsil ocaqlarında əxlaqi-mənəvi keyfiyyətlər, fiziki möhkəmlik, əmək vərdişləri, davranış qaydaları, bədii-estetik duyumu və s. kimi keyfiyyətlər qazanılır. Burada vətənpərvərlik tərbiyəsi kör-koranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunur.

Son dövrlərdə gənclərimizin vətənpərvərlik tərbiyəsinə diqqət daha da artırılmışdır. Təhsil müəssisələrinin qarşısında gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması üçün müəyyən vəzifələr qoyulmuşdur. Bu məqsədə çatmaq üçün məktəb və ailə uşaqlarda vətənə, xalqa məhəbbət hissi tərbiyə etməklə yanaşı, onlarda vətən qarşısında şərəf və borc hissini də qüvvətləndirilmişdir.

8 Noyabr - Zəfər Günü münasibətilə Gəncə şəhər Ə. Cavad adına 2 nömrəli tam orta məktəbdə əlamətdar bir tədbir keçirilib. Tədbir məktəb rəhbərliyinin təşəbbüsü və müəllim kollektivinin fəal iştirakı ilə yüksək səviyyədə təşkil olunub.



Məktəbdddə eyni zamanda "8 Noyabr - Zəfər Günü münasibətilə məktəbdə rəsm və foto sərgisi təşkil olunmuşdur.

Tədbirin təşkilatçıları - məktəbin müəllimi Dinarə Bayramova və UBTR rəhbəri Kəmalə Tağıyevadır.

Şagirdlərin yaratdığı əsərlər çox maraqla qarşılanıb, Uşaqların vətənə olan böyük sevgisi insanlarda qürur hissi yaradıb.



# Gəncə şəhəri 24 nömrəli tam orta məktəbdə Zəfər Günü

Təhsil ocaqlarında təlim-tərbiyə prosesi onları bütövlükdə hərtərəfli bilikli bə bacarıqlı vətənpərvər şəxsiyyət kimi formalaşdırılmasını nəzərdə tutur. Bu işlər şagird dünyagörüşünün daha da artırılmasına, onlarda vətənə gələcəkdə layiqli müdafiəçilər olmaq üçün bir çox lazımi vərdişlərin yaradılmasına və s. yönəlib. Tədricən və planlı şəkildə görülən bu işlər uşaqlarda vətənpərvərliyin ilk təməlini yaradır. Axı uşaqlar bizim vətənimizin gələcəyidir. Vətənimizi, onun ən qiymətli sərvəti olan xalqımızı məhz onlar qoruyacaq və müdafiə edəcəklər. Hələlik isə təhsil ocaqları öz təlimverici, tərbiyəedici funksiyasını yerinə yetirməklə böyüməkdə olan bu gənc nəslin təlim-tərbiyəsinə var gücünü həsr edir.

Vətənpərvərlik tərbiyəsi ayrı-ayrı sahələr üzrə aparılsa da, hər biri özünəməxsus funksiya daşıyır. Bu işin bir neçə fəaliyyət istiqaməti mövcuddur. İstiqamət eynidir-vətənə layiqli oğul və qızlar yetişdirmək. Bu bizim yetirmələrimiz olan gənclərin mənəvi aləminin daha da zənginləşdirilməsinə xidmət edir. Bu, bizim işimizin əsas qayəsi, məqsədi sayılır. Nəktəblər uşaqlarda mənəvi təlabatın yaradılması üçün müasir təhsilin verdiyi bütün üstünlüklərdən faydalanır, təlim - tərbiyə işini düzgün qururlar.Azərbaycan özünün müasir təhsil sistemi ilə fəxr edir. Bu, təhsil ocaqlarında vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə qurulması üçün bir zəmin və stimuldur. Bu sahədə pedaqoqların gördüyü əməli işlər öz yaddaqalan xüsusiyyətləri ilə seçilir. Gəncə şəhər 24 nömrəli tam orta məktəbdə Zəfər Günü təşkil olunan silsilə maraqlı tədbirlər buna bir daha sübutdur.




***Şəkildə:Gəncə şəhər 24 nömrəli tam orta məktəbdə Zəfər Günündə silsilə maraqlı tədbirlər təşkil olunub.***






***Şəkildə:Gəncə şəhər 24 nömrəli tam orta məktəbdə şagirdlər Zəfər Günü***



# "Müzəffər xalq, Qalib dövlət" adlı ədəbi-bədii kompozisiya və sərgi



5 noyabr 2025-ci il tarixində Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsi, Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 11 №-li kitabxana filialı və Gəncə Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə Zəfər Gününə həsr olunmuş "Müzəffər xalq, Qalib dövlət" adlı ədəbi-bədii kompozisiya və sərgi keçirilib.

Tədbir şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Daha sonra çıxış edənlər - şəhid anaları Nailə Ələkbərova və Nigar Məmmədova, qazi İmran Rəcəbov, Gəncə Maarif Evinin direktoru və Gəncə Dövlət Universitetinin müəllimləri - Zəfərə gedən şanlı yol haqqında fikirlərini bölüşüblər.

Tədbirdə “Biz qalib ölkənin vətəndaşıyıq” adlı şeir səsləndirilib, Respublikanın əməkdar artisti Kəmalə Tağızadə və uşaq musiqi məktəblərinin şagirdləri vətənpərvərlik mövzusunda mahnılar ifa ediblər. Qırıxlı kənd folklor evinin şagirdləri “Azərbaycan” mahnısı və “Xarı bülbül” rəqsi ilə çıxış ediblər.




Sonda Zəfər Gününə həsr olunan videoçarx nümayiş etdirilib və 44 günlük Vətən müharibəsinə aid şəkil, kitab və rəsm əsərlərindən ibarət sərgi təqdim olunub

# "44 günə fəth olunan Zəfər Zirvəsi" ədəbi-bədii gecə



Gəncə Daşkəsən-Regional Mədəniyyət İdarəsi Gəncə şəhər Mərkəzi Kitabxananın xidmət şöbəsinin təşkilatçılığı ilə 44 günlük Zəfər tariximizin 5-ci ildönümünə həsr olunmuş "44 günə fəth olunan Zəfər Zirvəsi" adlı iki hissəli musiqili, ədəbi-bədii gecə keçirilib.

Azərbaycan Dövlət Himni ilə tədbir açıq elan olunub. Azərbaycan şəhidlərinin ruhu 1 dəqiqəlik sükutla yad edilib.

Xidmət şöbəsinin əməkdaşlarının hazırladığı "Zəfər Tariximiz" adlı videoçarx nümayiş olunub. MKS-nin direktoru qonaqları salamlayaraq, Zəfər günü münasibətilə hər kəsi təbrik edib.

Daha sonra tədbirin rəsmi hissəsinin qonaqları GDU-nun Ümumi Tarix Kafedrasının baş müəllimi Yəhya Süleymanov, Əməkdar Mədəniyyət İşçisi Bəxtiyar Muradov, Turan Beynəlxalq Akademiyasının akademiki, "Qərbi Azərbaycan"

İcması İdarə Heyətinin üzvü Bayram Apoyev, AMEA Gəncə bölməsinin Nizami Gəncəvi mərkəzinin direktoru, dosent Əlimuxtar Muxtarov, “Maarif Evi” İB rəhbəri İmamverdi Vəliyev Zəfər tariximizlə bağlı danışaraq, şanlı tariximizə xatirələrdə qısa və maraqlı ekskursiya etdilər.



Tədbirin bədii və musiqili hissəsinin qonaqları Gəncə Uşaq İncəsənət Məktəbinin şagirdlərinin xalq çalğı alətləri ansablının ifasında xoreoqrafının rəhbərliyi ilə “Gəncə Qönçələri” Azərbaycan milli xalq rəqsi “Sarı Gəlin”, “Koroğlu” operasından “Qızlar rəqsi”, bədii rəhbər Məsud Kərimovun rəhbərliyi ilə Abışov Necati və Nəsibov Kazımın ifasında “Şuşanın dağları”, “100 yaşasın”, “Yaşa Azərbaycan” kimi vətənpərvər ruhlu mahnılar səsləndi.

Sonda şəhid anaları və qazilərlə “44 günə fəth olunan Zəfər Zirvəsi” adlı sərgi ilə şəkillər çəkdirildi.

## Gəncə şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbində “Zəfər yazan tariximiz” adlı tədbir



Gəncə - Daşkəsən Regional Mədəniyyət İdarəsi tabeliyində fəaliyyət göstərən Gəncə şəhər Fikrət Əmirov adına 1 nömrəli Uşaq Musiqi Məktəbində Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

"Zəfər Günü" münasibəti ilə təşkil olunmuş tədbirdə digər şəhidlərimizlə bərabər məktəbin vətən uğrunda canından keçmiş məzunu Mirhüseyn Seyidzadə Miryunis oğlunun xatirəsi bir dəqiqəlik sükutla anılmışdır.

Şəhidin atası Miryunis Seyidzadə öz çıxışı ilə 44 günlük Vətən müharibəsində iştirak etmiş bütün şəhidlərə rəhmət dilədi.

“Zəfər yazan tariximiz” adlı tədbirdə məktəbin nağara və saz ansamblı, xor, xanəndə və nəfəsli alətlər ansamblı yer alıb. Eyni zamanda məktəbin Nəzəriyyə müəllimi Ülviyyə Bağırova öz Rəsm Qalereyasından olan rəsmləri təqdim etdi.



Sonda məktəbin direktoru Oqtay Şərifov çıxışında Azərbaycanın dövlət müstəqilliyinin qorunmasının hər bir vətəndaş üçün müqəddəs borc olduğunu qeyd edərək, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin vacibliyini vurğuladı və şəhidlərimizin əziz xatirəsinə dərin ehtiramlarını bildirdi.

# Gəncə şəhər 3 nömrəli Uşaq Musiqi Məktəbində Zəfər Günü




06 noyabr 2025-ci il tarixində Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən 3 nömrəli Uşaq Musiqi Məktəbində 8 Noyabr - Zəfər Gününün beşinci ildönümü münasibətilə tədbir keçirilib.

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəman vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə 44 günlük Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı şanlı Qələbə barədə ətraflı məlumat verilib.

Bədii hissədə musiqi məktəbinin şagirdlərinin ifasında vətənə, bayrağa həsr olunmuş musiqi nömrələri səsləndirilib.

# Gəncə şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbində Zəfər Günü



06 noyabr 2025-ci il tarixində Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən 4 nömrəli Uşaq Musiqi Məktəbində 8 Noyabr - Zəfər Gününün beşinci ildönümü münasibətilə tədbir keçirilib.

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəman vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə müəllim və şagirdlərdən ibarət məktəbin xor, vokal, instrumental ansambıllarının ifasında təqdim olunan vətənpərvərlik mövzusundakı musiqilər, Zəfər bayramına, Qələbəmizə və Şəhidlərə həsr olunmuş çıxışlar maraqla qarşılanıb.

Gəncə şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru Aynur Şixiyeva və müəllim heyəti Gəncə Memorial Kompleksinə baş çəkiblər.

Əvvəlcə memorial lövhənin önünə çiçəklər düzüb, şəhidlərin ruhuna dərin ehtiramlarını bildiriblər.

Mərasimdən sonra müəllimlər Gəncə Memorial Kompleksindəki muzey ekspozisiyası ilə tanış olublar. “XX əsrin əvvəli”, “Deportasiya və məcburi köçkünlük”, “Soyqırımı və kütləvi qırğınlar”, “Atəşkəs və Vətən müharibəsi dövrü”, “İtkin düşənlər, kütləvi məzarlıqlar, mina terroru” və “İşıqlı gələcəyə doğru” mövzularına həsr olunmuş zallar iştirakçılarda dərin təəssürat yaradıb.



Sonda Gəncə Memorial Kompleksində yaradılan şəraitlə tanış olublar.

# Gəncədə "Zəfər övladlarının mədəniyyətdə bir günü" adlı tədbir keçirilib



8 Noyabr - Zəfər Gününün 5 illiyi münasibətilə Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsi və Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Zəfər övladlarının mədəniyyətdə bir günü" adlı genişmiqyaslı tədbir keçirilib.

Tədbirdə 100-dən çox şəhid ailəsi və şəhid övladları iştirak ediblər.

Günün ilk mərhələsində iştirakçılar Gəncə Memorial Kompleksini ziyarət ediblər. Daha sonra şəhid övladları Uşaq Kitabxanasının ilk qonaqları olublar. Günün davamında isə Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında uşaqlar üçün bədii kompozisiya nümayiş etdirilib.



***Şəkildə: Gəncə şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbinin “Zirvə” ansamblının Gəncə Dövlət Filarmoniyasında çıxışı*.**



Proqram çərçivəsində Gəncə Dövlət Kukla Teatrı "Milçək və Vizilçək" tamaşasını nümayiş etdirib. Gəncə şəhərinin uşaq musiqi və incəsənət məktəblərinin kollektivləri, həmçinin Gəncə şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbinin "Zirvə" ansamblı da vətənpərvərlik ruhunda çıxışlarla tədbirə rəng qatıb.

Tədbir zamanı uşaqlar üçün xüsusi olaraq sağlam və gigiyenik qidalar təqdim edilib.

Tədbirdə Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin rəisi Nail Məmmədov, Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları İctimai Birliyinin Gəncə rayon filialının sədri Nemət Abdullayev, Vətən müharibəsi qəhrəmanı Anar Qasımov, eləcə də Gəncə Şəhər İcra Hakimiyyətinin nümayəndəsi Mahir Hüseynov iştirak ediblər.

Çıxış edənlər Zəfər Gününün əhəmiyyətindən, dövlətimizin şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan danışıblar.

Bu cür tədbirlər şəhid övladlarının mənəvi inkişafına, mədəni həyata inteqrasiyasına və onların cəmiyyət tərəfindən daim diqqətdə saxlanılmasına xidmət edir.

Onu da qeyd edək ki, şəhid övladlarının tədbir məkanlarına təhlükəsiz və rahat şəkildə daşınması AYNA-nın dəstəyi ilə yüksək səviyyədə təşkil olunub.

Bu dəyərli təşəbbüsün həyata keçirilməsində əməyi olan bütün təşkilatçılara və dəstək göstərən şəxslərə şəhid ailələri adından dərin təşəkkürlər bildirilib.

Şəhid ailələri bu kimi tədbirlərin keçirilməsini yüksək qiymətləndirir, onların həm mənəvi dəstək, həm də ictimai həmrəyliyin təzahürü olduğunu qeyd ediblər. Onlar bu cür təşəbbüslərin gələcəkdə də davam etdirilməsini arzuladıqlarını və vacib hesab etdiklərini bildiriblər.

# Vətənə məhəbbət ən mühüm ali hissdir



Cəmiyyətin hər bir üzvünün Vətən haqqında fərqli təsəvvürləri var. Vətən haqqında illər ərzində formalaşmış fikirlər insanı cəlb edirsə bu, onun uğrunda hər cür qurban verməyə hazır olduğu ideala çevrilir. Buna misal olaraq Vətən Müharibəsinin ilk günlərində öz vətəninin müdafiəsinə qalxmış, hərbi komisarlıqlarda orduya könüllü yazılmaq üçün növbəyə düzülmüş gənclərimizi, torpaqlarımızın düşmən işğalından azad edilməsi üçün hər şey edən dövlətimizi, onun Ali Baş Komandanı İlham Əliyevi misal göstərmək olar.

Ölkənin iqtisadi-ictimai, mədəni inkişafı, əhalinin sosial rifahı da vətənpərvərlik təbliğatında ruh yüksəkliyi yaradan əsas faktorlardan biri kimi qiymətləndirilir.

Vətənpərvərlik və milli-mənəvi şüurun təbliği və aşılanması bir tərəfdən ictimai səciyyə daşıyaraq şagirdlərin, tələbələrin vətəndaş kimi formalaşmasında, öz Vətənini, ləyaqətini qorumaqda mənəvi təsir gücünə malikdir. Başqa bir yöndən vətənpərvərlik gənclərdə vicdan, ləyaqət, ədalət hisslərini tərbiyə edir, şəxsi mənafe, eqoizimdən uzaqlaşdıraraq millət,

xalq sevgisini oyadır. Bu isə öz növbəsində xalqın mənafeyinə xidmət edilməsinə zəmin yaradır. Bir sözlə, Vətənini, xalqını, millətini, torpağını sevən şəxsin ədalət və mərhəmət hissi də uca olar.

Vətəni sevmək azdır, gərək həm də onu qorumağı bacarmalı, onun uğrunda və onun rifahı üçün çalışmalı, vətən və xalqın ilə bağlı yaxşı nə varsa, sevməyi bacarmalısan. Bu yolda hər birimiz vətənini səmimi qəlbdən sevən insanlar olmalıyıq. Vətənini sevməyin özü də bir yüksək mədəniyyətdir. İllər ərzində xalqımız arasında formalaşan fikirlər, təcrübədə gördüyümüz keyfiyyət və cəhətlər, xalqımızın öz vətəni uğrunda qəhrəmanlıq dolu mübarizəsi bu sevginin yüksək formada inkişaf etdiyini deməyə əsas verir. Bu yolda biz mədəniyyət işçiləri də öz töfhələrini vermiş və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında, mədəniyyətimizin günü-gündən daha da inkişaf etdirilməsində xüsusi rol oynamışıq. Bu haqda çoxlu yazılmışdır. Çox sevindirici haldır ki, milli mədəniyyətimizin yüksəliş dövrünü yaşayırıq və bu yolda daha da əzmlə çalışırıq.

Günümüzdə yeniyetmə və gənclərimin vətənpərvərlik tərbiyəsi aktual məsələlərdən biri olaraq qalmaqdadır. Vətənpərvərlik tərbiyəsinin müxtəlif sahələri arasında qarşılıqlı əlaqələr mövcuddur və bu, bizə bu hisslərin daha da inkişaf etdirilmsinə və nəticədə tərbiyəli şəxsiyyətlərin yetişdirilməsinə imkan verir. Orta təhsil müəssisələri Uşaq Musiqi Məktəbləri və digər mədəniyyət obyektləri ilə sıx əlaqəlidir. Bu, təhsil alan uşaqlarımızın hərtəfli inkişafı üçün geniş imkanlar bəxş edir.Bu həm də vətənpərlik mədəniyyətinin inkişafına geniş yol açır, insanlarda vətəni

sevmək mədəniyyəti formalaşır və bu dünyagörüşü daha da inkişaf etdirir.

Mədəniyyətin özü geniş mənalı bir məhfumdur. Hər bir sahədə konkret mədəniyyət formaları mövcuddur və bu, insanın ümumi əxlaqi cəhət və keyfiyyətlərini özündə ehtiva edir. Bu müsbət keyfiyyət və cəhətlər öz növbəsində Vətən və vətənpərvərlik haqqında özünəməxsus anlayışı inkişaf etdirir, müəyyən bir cəmiyyət daxilində inkişaf edən fikirlərin təsiri altında bilik və dəyərlər formalaşır, həm fərdi, həm də böyük bir kütlə üçün vətənpərvərlik fəaliyyətinin istiqaməti müəyyən edilir. Vətənpərvərlik mədəniyyəti sosial fəaliyyət mədəniyyətinin bir hissəsidir, onun xüsusi bir növüdür ki, bu da cəmiyyətdə insanların qarşılıqlı əlaqə yollarından biridir.

Vətənpərvərlik mədəniyyəti vətənpərvərlik şüurunun, adət-ənənələrin, bu sahə ilə bağlı fəaliyyət istiqamətlərinin və davranışın məcmusudur. Dövlətimizin inkişafında fəal iştirak vətənpərvərlik mədəniyyətinin mühüm elementidir, çünki onlar son nəticədə insanların vətənpərvərlik münasibətlərinin reallaşmasına gətirib çıxarır.

Şəxsiyyətin vətənpərvərlik fəaliyyəti cəmiyyətdən kənarda mövcud deyil. Çünki o, insanlar tərəfindən həyata keçirilir və eyni zamanda cəmiyyət daxilində hər bir fərdin inkişafına da yol açır. Bütün sahələrdə vətənpərvərliyin təzahürü zamanı ideal vətəndaş yaranır. O bütün səy və bacarıqlarını cəmiyyətin mütərəqqi mədəni, siyasi və sosial-iqtisadi inkişafına yönəldir. Vətənpərvərlik fəaliyyəti insanın vətəninin inkişaf etdirilməsi, çiçəklənməsi və onun müdafiəsi haqda biliklərindən qaynaqlanır, genişləndirilir və dərinləşdirilir. Bu fəaliyyət vətənpərvərlik əqidəsini inkişaf etdirir, vətənpərvərlik hisslərini ifadə edir, fərdin ehtiyac və maraqlarını həyata keçirməklə həm

də onun mənəvi ehtiyacını ödəyir. Bununla da vətənpərvərlik fəaliyyəti insanın sosial fəaliyyətinin bir forması olaraq mahiyyətcə insani, ali, ictimai ehtiyaclardan qaynaqlanır. O mahiyyətcə digər davranış və reaksiyalardan kəskin surətdə fərqlənir. Bu, daxili motivasiyalı fəaliyyət formasıdır, yəni insanın daxili, psixoloji proseslərindən yaranır və qaynaqlanır. Bunların hissləri biruzə verən şəxs tərəfindən həyata keçirilməsi nəticəsində isə mədəni irsi təmsil edən və yaradıcı insan fəaliyyətinin nəticəsi olan maddi və ya ideal məhsul doğulur. Fəaliyyətin bu təcəssümü və ya əksi həm də insanın bilik və bacarıqlarının izlərini özündə daşıyır.

Bu gün ölkəmiz qurulan ictimai yaddaş mədəniyyəti ilə də seçilir. Tarixi yaddaşın formalaşdırılması böyümükdə olan gənc nəsilləri öz vətənini qəlbən sevən insanlara çevirir.O bu gün aktual məsələlərdən biridir, çünki özündə tariximizin şanlı keçmişi olan səhifələrini daşıyır. Bu vəziyyətdə, tarixi yaddaş vətənpərvərlik hissini təcəssüm etdirir və qiymətləndirmə yolu ilə konkret tarixi şəxsiyyətlərin fəaliyyəti, müəyyən dövrdə insan şüuru və davranışı üçün nəyin xüsusi dəyər daşıdığı barədə təəssürat, mühakimə və mülahizələr formalaşır. Tarixi yaddaş keçmişin əsas tarixi hadisələrini insanların şüurunda saxlamaq, hətta tarixi bilikləri qavrayışın müxtəlif formalarına çevirmək, onun əfsanələrdə, nağıllarda, adət-ənənələrdə qeyd etmək qabiliyyətinə də malikdir.

Vətənpərvərlik, vətəndaş cəmiyyətinə şüurlu mənsubiyyət hissi kimi, əsas müəyyən edən amildir.

***Aynur Şixiyeva, Gəncə şəhəri, 4 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru.***

# Samux rayon Sərkar kənd Uşaq Musiqi məktəbi və Qarayeri Qəsəbə Uşaq Musiqi məktəbində "Qarabağ Azərbaycandır" adlı tədbir




6 noyabr 2025-ci il tarixdə Gəncə - Daşkəsən Regional Mədəniyyət İdarəsi Samux rayon Sərkar kənd Uşaq Musiqi Məktəbi və Qarayeri Qəsəbə Uşaq Musiqi Məktəbinin birgə təşkilatçılığı ilə Zəfərimizin 5-ci il dönümünə həsr olunmuş, "Qarabağ Azərbaycandır" adlı tədbir keçirilib.

Tədbirdə Gəncə-Daşkəsən Regional Mədəniyyət idarəsinin rəsmiləri, şəhid ailələri və qazilər,Samux rayon üzrə Həmkarlar təşkilatının nümayəndəsi, region üzrə musiqi məktəblərinin nümayəndələri iştirak ediblər.

Tədbirdə hər iki məktəbin kollektivi musiqi nömrələri ilə çıxış etdilər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, bədii hissə ilə davam edib.




Şagirdlərin səsləndirdiyi vətənpərvər ruhlu nəğmələr, ifalar iştirakçıların marağına səbəb olmuş, tədbirin emosional ahənginin qorunmasına zəmin yaratmışdır.

Bədii hissənin sonunda Samux rayonu, Qarayeri qəsəbə Uşaq Musiqi Məktəbinin direktoru Təvəkgül Hüseynli zəfər yolumuzdan, şanlı tariximizdən qısa şəkildə bəhs etmiş, gənclərin vətənpərvər ruhda tərbiyə olunmasının vacibliyini qabartmışdır. O çıxışında xalqımızın qəhrəmanlıq tarixinin ən şanlı səhifələrindən olan 8 Noyabr - Zəfər Gününün əhəmiyyətindən bəhs edib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan böyük Qələbənin Ulu Öndər Heydər Əliyevin ideyalarının və müəyyən etdiyi inkişaf yolunun məntiqi nəticəsi olduğunu və bu Qələbənin Azərbaycan xalqının birliyinin, dövlətimizin gücünün və ordumuzun rəşadətinin təntənəsi olduğunu qeyd edib.

İçtirakçılar tədbirlə bağlı öz təəssüratlarını bölüşmüş, tarixi hadisənin əhəmiyyətindən danışıblar.



***Şəkildə: Samux rayonu, Sərkar kənd Uşaq Musiqi Məktəbi və Qarayeri qəsəbə Uşaq Musiqi Məktəbinin kollektivi musiqi nömrələri ilə çıxış etdilər.***



## Qəhrəmanlarımızın adı yaşadılmalı, onlar gənc nəsillərə daha yaxından tanıdılmalıdır



Xalqımızın igid, qəhrəman oğlu Natiq Qasımov xalqını ürəkdən sevən bir igid olub. Onun qəhrəmanlığı gələcək nəsillər üçün də bir örnək yeri olacaqdır. Tarixə düşən qəhrəmandır. O, göstərdiyi qəhrəmanlıq ilə oğullarımızın vətənə olan sonsuz sevgisini, düşmənə olan hədsiz nifrətini sübut etmiş oldu. Düşmənlər hələ o illərdə bizim qəhrəman oğullarımızın yenilməzliyini gördülər. Qarabağ torpağında çaldığımız tarixi qələbə bir daha buna sübut oldu.

Qəhrəmanlar haqqında olan yazılı ədəbiyyat nümunələri insanların qəlbində böyük hisslərin, yenilməz ruhun meydan tapmasında böyük bir təsirli vasitədir. O, xalqımızın övladlarını insanlıq naminə böyük işlər görməyə səsləyir. Vətənpərvərlik ruhunu özündə daşıyan ədəbiyyat nümunələri isə bu gün öz böyük tərbiyəedici funksiyası ilə daha da diqqət çəkir, onlar bu günün vacib informasiyalarını özündə daşımaqla, gələcək nəsillərin təlim-tərbiyəsi üçün böyük önəm daşıyır.

Əsrimiz texnologiya və informasiya əsridir. Bu, qəhrəmanlarımız haqqında da geniş məlumatlar almağa şərait

yaradır. Məhz informasiya vasitələrinin verdiyi imkanlar vasitəsilə biz yenilməz qəhrəmanımız Natiq Qasımov haqqında məlumatlara sahib ola bildik. İnsanlar indi bu qəhrəmanın şəninə şeirlər qoşur, mahnılar bəstələyir, ona filmlər həsr olunur.Bu, əlbəttə ki, qürurverici bir haldır. Qəhrəmanlarımızın adı yaşadılmalı, onlar gənc nəsillərə daha yaxından tanıdılmalıdır.

İnsanlar üçün qəhrəmanlıq mövzusu həmişə maraqlı bir mövzu olaraq qalacaqdır. Bu, qəhrəmanlığa olan məhəbbətin bir cür təzahürüdür. Onları xatırlamaqla, insanlar onların ruhunu da yaşatmalı olurlar. Qəhrəmanlığı tərənnüm edən mahnılar, rəvayət və hekayətlər, kitablar və filmlər də bu səbəbdən yaranır. Qəhrəmanlar bu yolla yaşadılır, unudulmur. Bunu ailədə də təbliğ etmək, uşaqlarda qəhrəmanlığı özündə daşıyan şifahi və yazılı ədəbiyyata məhəbbət oyatmaq gərəkdir.Bu sahədə təhsil ocaqlarında böyük işlər aparılır, onlarda ədəbiyyata, şeirə, musiqiyə böyük məhəbbət aşılanır. Bununla belə uşaqlarda qəhrəmanlığı tərənnüm edən bütün vasitələrə olan məhəbbətin ilkin təməli də ailədə qoyulmalıdır. Uşaqlarda kitablara məhəbbətin aşılanması onların təlim-tərbiyəsində önəmli xarakter daşıyır.  Bu işdə valideynlərin də üzərinə böyük yük düşür. Onlar uşaqların yaş dövrünə uyğun kitablar seçmək və bunu məqsədyönümlü şəkildə etmək, hələ uşaq yaşlarından onların şüurunda gözəlliyin, qəhrəmanlığın, vətənə məhəbbət və vətənpərvərliyin daşıyıcıları olan kitabların toxumunu səpmək lazımdır.Əgər bu tərbiyə aşılansa,onda uşaqlarda yaxşı oxumaq,əlaçı olmaq, məktəbin fəal və qoçaq şagirdi olmaq üçün onlarda daxili yanğı yaranacaqdır. Məktəb biliklərin əsasını qoyur, bu biliklərin təkmilləşdirilməsi isə insanda bütün ömrü boyu davam edir.

Şagirdlərin vətənpərvər vətəndaş kimi formalaşmasında, bu ruhda tərbiyə olunmasında vətənpərvərlik və hərbi-vətənpərvərlik mövzusunda yazılmış, yaxşı düşünülmüş, zəngin və estetik cəhətdən uşaq və gənc ürəkləri zənginləşdirən kitablar öz sözünü deyir.Uşaqlar tərəfindən sevilən və çox oxunan bədii ədəbiyyat nümunələri çoxdur. Onların uşaqların tərbiyəsində oynadığı rol əvəzsizdir. Uşaqların ədəbiyyata olan maraqlarını istiqamətləndirərkən, onlara doğma vətənimizin gözəlliyini, müqəddəs saydığımız hər şeyi dərindən başa düşməyə kömək edirik. Bu yolla onlara həm də vətənimizi, onun keşiyində duran, onu qoruyan qəhrəmanlığımızı sevdirik. Bu, onlara doğma xalqımıza məhəbbəti və sözün gözəlliyi hissini aşılayır.

Kitablar insan daxilində insan tərbiyə edir, bu günkü nəsillərin gələcəkdə vətənimizin layiqli oğul və qızları, vətənpərvərləri kimi yetişməsində böyük rol oynayır.Bunu eynilə incəsənət aləminə də aid etmək olar. Uşaqlar tək ədəbiyyat nümunələri üzrərində tərbiyə olunmurlar. İdman, musiqi, incəsənət... uşaqlarımızın daxili aləmini gözəlləşdirir, bu yolla onlar xoşbəxtlik və gözəllik dünyasına daxil olurlar. Estetik tərbiyə də təlim - tərbiyədə önəmli yer tutur. Estetik tərbiyə həmişə var. Bu tərbiyə hər gün nəzərə çarpmadan həyatımıza daxil olur.Ona görə də gənc və yeniyetmələrə bu tərbiyəni aşılayarkən onları düzgün, faydalı yola istiqamətləndirmək lazımdır.Uşaqları, gənc və yeniyetmələri tərbiyə etmək - onları ölkəmizdə baş verən bütün yenilikləri, yüksəlişi səmimi qəlblə sevməyi, yaşadığı torpağın, butorpağın yetişdirdiyi qəhrəmanlarını, musiqisini, mədəniyyətini, bu günün, xoşbəxt gələcəyini sevməyi öyrətmək deməkdir.

Ölkəmiz müstəqillik qazandığı dövrdən üzü bəri vətənpərvərlik hissləri xalqımızın şüurunda özünə yer almış, bu, xalqımıza və dövlətimizə yenilməz məhəbbət formasında özünü daim biruzə vermişdir. Bu hisslər dövlətimiz və xalqımızla bağlı bütün işlərdə kütləvi şüurda son dərəcə geniş əks-səda tapmışdır.Vətənə məhəbbət, milli iftixar, öz xalqının bu gününə, keçmişinəhörmət Azərbaycan xalqına xas olan xüsusiyyətlərdir. Bu hisslər hələ uşaq yaşlarından formalaşır və tədricən onun ağıl və düşüncəsinə hopur. Natiq Qasımov kimi qəhrəmanlarımıza olan məhəbbət hissləri də bu xüsusiyyətlər arasında ən ülvi hisslərdir.

***Təvəkgül Hüseynli, Samux rayonu, Qarayeri qəsəbə Uşaq Musiqi Məktəbinin direktoru.***

# Qarabağ Qaziləri İctimai Birliyinin Gəncə filialında kitab təqdimatı keçirilib




Qarabağ Qaziləri İctimai Birliyinin Gəncə filialının ofisində filialın fəaliyyətinə həsr olunmuş “Qarabağ Qaziləri İctimai Birliyinin Gəncə filialı” kitabının təqdimatı keçirilib.

Kitabın müəllifləri yazıçı-publisist Ruhulla Zahidov və Patriot.news saytının rəhbəri, filial sədrinin birinci müavini, mətbuat xidmətinin rəhbəri Ceyhun Əliyevdir.

Tədbiri açıq elan edən Ceyhun Əliyev əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda şəhid olmuş qəhrəmanların əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsini təklif edib. Daha sonra o, nəşr haqqında ətraflı məlumat verib, kitabın yaranma zərurəti, məzmunu və məqsədi barədə fikirlərini bölüşüb.

Yazıçı-publisist Ruhulla Zahidov da çıxış edərək hər zaman vətənpərvərlik mövzusuna müraciət edən bir qələm sahibi kimi

Qarabağ qazilərinin qəhrəmanlıq yolunun gənc nəslin tərbiyəsində mühüm rol oynadığını vurğulayıb.



Ruhulla Zahidov çıxışında kitabda qazilərin ictimai həyatı ilə bağlı mühüm məqalələrin toplandığını bildirib.

Filialın sədri Eyvaz Hüseynov müəlliflərə dərin minnətdarlığını bildirərək belə nəşrlərin Qarabağ qazilərinin fəaliyyətinin ictimaiyyətə tanıdılmasında və vətənpərvərlik ruhunun aşılanmasında böyük əhəmiyyət daşıdığını qeyd edib.

Təqdimat mərasimində qonaqlar çıxış edərək kitabın cəmiyyət üçün verəcəyi töhfələri qeyd ediblər.

Tədbirin sonunda iştirakçılar xatirə şəkli çəkdiriblər.

# Zəfər Günü - Milli və Dini Həmrəyliyin Təntənəsi!



6 noyabr 2025-ci il tarixində Gəncə şəhərində "Zəfər Günü – Milli və Dini Həmrəyliyin Təntənəsi" adlı konfrans keçirilib. Tədbirin təşkilatçısı Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsidir.

Tədbir başlamazdan əvvəl Ulu Öndər Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda şəhər ictimaiyyəti, din xadimləri, gənclər, şəhid ailələri və qazilər iştirak ediblər.

Tədbirdə Qarabağ Qaziləri İctimai Birliyinin Gəncə filialının sədri Eyvaz Hüseynov və idarə heyətinin üzvləri də iştirak ediblər.

Filialın sədri Eyvaz Hüseynov çıxışında qeyd edib ki, Zəfər Günü xalqımızın milli həmrəyliyinin, mənəvi gücünün və dövlətinə sarsılmaz bağlılığının rəmzidir.

O bildirib ki, 44 günlük Vətən müharibəsində əldə olunan qələbə Azərbaycan xalqının birliyinin, inamının və vətən sevgisinin nəticəsidir.




Eyvaz Hüseynov şəhidlərimizin müqəddəs xatirəsinin daim uca tutulduğunu, qazilərin isə bu zəfərin canlı şahidləri kimi gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynadıqlarını vurğulayıb.

Tədbirdə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə Regional Bölməsinin müdiri Həsən Məmmədov və digər çıxış edənlər də milli-mənəvi dəyərlərimizin qorunması, dini həmrəyliyin möhkəmləndirilməsi və Vətən müharibəsində qazanılmış Zəfərin tarixi əhəmiyyəti barədə fikirlərini bölüşüblər. Sonda Zəfər Gününə həsr olunmuş bədii kompozisiya nümayiş etdirilib, vətənpərvərlik mövzusunda çıxışlar dinlənilib və xatirə şəkli çəkdirilib.

Tədbir yüksək mənəvi ruh və həmrəylik ab-havasında keçib.

# Qarabağ qaziləri Zəfər Gününün 5 illiyini qeyd ediblər




8 Noyabr - Zəfər Günü münasibətilə Qarabağ Qaziləri İctimai Birliyinin Gəncə filialının kollektivi bu möhtəşəm tarixi Qələbənin 5 illiyini qeyd edib.

Tədbir öncəsi filial üzvləri Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, Ulu Öndərin və Vətənimizin azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsini ehtiramla yad ediblər.

Daha sonra tədbir filialın ofisində davam etdirilib. Tədbiri filial sədrinin müavini Ceyhun Əliyev açıb. O, çıxışında 8 Noyabr - Zəfər Gününün tarixi əhəmiyyətindən danışaraq bildirib ki, bu gün Azərbaycan xalqının, ordusunun və Ali Baş Komandanın birliyinin, əzminin və qüdrətinin rəmzidir.



“Zəfər Günü bizim milli qürur, milli birliyimizin və dövlətçiliyimizin rəmzidir. Bu Qələbə tariximizin ən şanlı səhifələrindən biridir,” – deyə Ceyhun Əliyev vurğulayıb.

Tədbirdə çıxış edən filialın sədri Eyvaz Hüseynov da qeyd edib ki, Zəfər Günü hər bir azərbaycanlı üçün qürur və fəxarət mənbəyidir. Onun sözlərinə görə, bu Qələbə Azərbaycan dövlətinin gücünü, xalqın və ordunun birliyini dünyaya nümayiş etdirdi. Eyvaz Hüseynov vurğulayıb ki, şəhidlərimizin xatirəsi daim uca tutulur, qazilərimiz isə dövlətimizin xüsusi diqqət və qayğısı ilə əhatə olunurlar.

Tədbir zamanı digər iştirakçılar da çıxış edərək, Zəfər Gününün mənəvi və tarixi əhəmiyyətindən bəhs ediblər, qazilərə olan ehtiram və minnətdarlıq duyğularını ifadə ediblər. Sonda tədbir iştirakçıları birlikdə xatirə şəkli çəkdiriblər.

## Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində “Zəfər Günü” təntənə ilə qeyd olunub

8 noyabr 2020-ci il Azərbaycan tarixinin şanlı səhifəsinə - Qələbə Günü kimi qızıl hərflərlə yazılıb.

44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaqdır.

Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində hər il Zəfər Günü təntənə ilə qeyd olunur.Bu tədbirlər silsilə xarakteri daşıyır və Mərkəzin bütün kollektivi bu tədbirlərə böyük coşqu ilə qatılır. Zəfər Günü ilə bağlı mütəmadi olaraq layihələr icra olunur və bu istiqamətdə gerçəkləşdirilən bütün məsələlər xüsusi diqqətdə saxlanılır.

Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin Şəhid tələbələrinin Anaları ilə birlikdə "Zəfər Günü"nün 5-ci ildönümü münasibəti ilə Azərbaycan xalqının hərbi sücaət və şöhrətlərinin yerlərini ziyarət etdilər. Ziyarət zamanı şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub, ruhlarına dualar oxunub.

Bu səfər təkcə bir ziyarət deyil, həm də qürur, minnətdarlıq və Vətən sevgisinin canlı təcəssümü oldu. Uzun illər həsrətini çəkdiyimiz o doğma torpaqlarımız igid övladlarımızın canı bahasına düşməndən azad edildi. Bu ərazilərdə düşmənə qan udduran, torpaqlarımızın azadlığı uğrunda canından keçən oğullarımızın ailə üzvləri və yaralanaraq sağlamlıqlarını itirənlər üçün təşkil olunan belə səfərlər həm duyğusal, həm də mənəvi baxımdan dərin məna daşıyırdı. Bu təşəbbüs dövlətimizin və xalqımızın şəhid ailələrinə göstərdiyi qayğının və sonsuz ehtiramın daha bir təzahürüdür. Keçirilən belə tədbirlər bir daha göstərir ki, dövlətimiz şəhid ailələrini və müharibə veteranlarını heç vaxt unutmur.




***Şəkildə*: Şəhid tələbələrin anaları ilə birlikdə Azərbaycan xalqının hərbi sücaət və şöhrətlərinin yerləri ziyarət olundu.**





***Şəkildə: Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində Azərbaycan xalqının tarixi qələbəsinə, "Zəfər Günü"nün 5-ci ildönümünə həsr edilmiş tədbir keçirilib.***





***Şəkildə: Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində "Zəfər Günü"nün 5-ci ildönümünə həsr edilmiş tədbirdən görüntülər.***



Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzi və Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsi Gəncə şəhər 24 nömrəli kitabxana filialı ilə birgə 4.11.2025-ci il tarixdə 8 Noyabr Zəfər Gününə aid "Azərbaycan tarixinə qızıl hərflər yazılan gün" başlıqlı ədəbi-bədii kompozisiya keçirib.

Tədbirdə II Qarabağ Vətən Müharibəsində və Azərbaycanın suverenliyi uğrunda şəhid olan insanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ədəbi-bədii kompozisiyada məktəbin tələbələri vətənpərvərlik mövzusunda mahnılar, şeirlər və rəqslər ifa ediblər.

Ədəbi-bədii kompozisiyada 44 Günlük Vətən Müharibəsinə həsr edilmiş videoçarx və "Zəfər səninlədir, Azərbaycan!" başlıqlı sərgi nümayiş etdirildi.



Tədbirdə məktəbin müəllim və tələbə kollektivi, qazilər və şəhid valideynləri iştirak etdilər.



***Şəkildə: Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində təşkil edilmiş tədbirdən görüntülər***




***Şəkildə: Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinə müəlliflərin hədiyyəsi olan kitabların sərgisi.***

# Vətənpərvərlik tərbiyəsi vətəndaşların mənəvi inkişafının zəruri şərti kimi



Hal-hazırda dövlət gənclər siyasəti çərçivəsində həyata keçirilən gənc nəslə vətənpərvərlik və hərbi-vətənpərvərlik hisslərinin aşılanması işi mühüm əhəmiyyət daşıyır. Gənclərə bu istiqamətdə dəstəyin məzmunu, formaları və istiqamətləri artıq dövlət qanunları ilə tənzimləşmiş və yerlərdə uğurla həyata keçirilməkdədir. Sevinirik ki, biz pedaqoqlar təhsil ocaqlarında bu işin düzgün təşkil olunmasına nail olmuş, təcrübədə qarşımıza qoyulan əsas məqsədlərin əldə olunmasına nail ola bilmişik.

Hərbi-vətənpərvərlik tərbiyəsi dövlət orqanlarının, ictimai birliklərin və təşkilatların gənclərdə vətənpərvərlik şüurunun, Vətənə sədaqət hissinin, vətəndaşlıq borcunu yerinə yetirməyə hazırlığın, Vətənin mənafeyinin müdafiəsi ilə bağlı ən mühüm konstitusiya öhdəliklərinin aşılanmasına yönəlmiş çoxşaxəli, sistemli, məqsədyönlü və əlaqələndirilmiş fəaliyyətidir və Dövlət gənclər siyasətinin tərkib hissəsindən biridir .

Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində hərbi-vətənpərvərlik tərbiyəsinin əsasını sosial və pedaqoji komponent təşkil edir. Bunu nəzərə alaraq Gəncə

Dövlət Peşə Təhsil Mərkəzinin bütün müəllim kollektivinin fəaliyyəti tələbələrə bu sahədə müsbət təsir göstərmək məqsədi daşıyır. İşimizdə sosial, tarixi, əxlaqi, siyasi, hərbi və digər məsələlərə dair dünyagörüşləri, eləcə də bu sahənin qarşıya qoyduğu ən mühüm vəzifələr-mənəvi, əxlaqi və fəaliyyət yönümlü keyfiyyətlər kimi Vətənə məhəbbət, qanunun aliliyinə hörmət, konstitusiya tələblərinin yerinə yetirilməsi üçün məsuliyyət, Vətəni müdafiə etmək öhdəlikləri önə çəkilməkdədir.

Ticarət və Xidmət üzrə Gəncə Dövlət Təhsil Mərkəzinin peşə təhsilinin tədrisi ilə paralel olaraq həyata keçirtdiyi işin əsas məqsədi hərbi-vətənpərvərlik ruhunun daha da inkişaf etdirilməsi, gənclərin vətənimiz üçün layiqli vətəndaşlar kimi yetişdirilməsidir.

Pedaqoji heyət təhsil və təlim fəaliyyətini planlaşdırarkən bu hal nəzərə alınır.Bunun üçün təhsildə hərbi-vətənpərvərlik konsepsiyasında müəyyən edilmiş məqsədlər vardır. Bunlar gənclərdə ən mühüm mənəvi, əxlaqi və sosial dəyərlər kimi vətəndaş şüurunun və vətənpərvərlik hisslərinin inkişaf etdirilməsi, gənclərdə peşə əhəmiyyətli keyfiyyətlərin, bacarıqların və onları cəmiyyətin müxtəlif sahələrində, xüsusən hərbi və digər əlaqəli dövlət qulluğunda fəal nümayiş etdirmək üçün hazırlığın inkişafı, sülh və müharibə dövründə konstitusiya və hərbi vəzifəyə sədaqət hissini inkişaf etdirmək, yüksək məsuliyyət və nizam-intizamın inkişafı kmi keyfiyyətlərin aşılanması kimi məsələləridir.

Biz mərkəzdəki tədris prosesini onların şəxsiyyət kimi formalaşmasına kömək edəcək şəkildə qurmağa çalışır, bununla da təhsil və təlim prosesində tələbə oğlan və qızların üzərinə götürdükləri sosial rolların əhəmiyyətini onlara başa

salırıq. Bu, peşə təhsili haqqında dövlət proqramının, Azərbaycan Respublikası vətəndaşlarının vətənpərvərlik tərbiyəsi və Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi konsepsiyası tələblərinin yerinə yetirilməsinə böyük töhfə verir. Bununla Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin pedaqoji kollektivinin fəaliyyəti təhsil alanların mənalı həyat mövqeyinin inkişafına yönəldilir. Tələbələrin yüksək dəyərlərə əsaslanan inkişafı və vətənpərvər vətandaş kimi formalaşması onların gələcək həyat fəaliyyəti ilə ayrılmaz şəkildə bağlıdır. Bu, onların bacarıqlı mütəxəssis kimi yetişdirilməsi prosesi ilə yanaşı aparılır. Dəyərlərə riayət etmək, onlara qayğı ilə yanaşmaq və əldə edilmiş biliklərdən istifadə etmək, bu dəyərləri qorumaq üçün bacarıq və təcrübə qazanmaq tələbələr qarşısında qoyulan tələblərdir. Onlar cəmiyyətin fəaliyyət göstərdiyi qanunları bilməli və onlardan öz fəaliyyətlərində məharətlə istifadə etməlidir, dövlətimizin tarixini və cəmiyyətin ənənələrini bilməlidir, vətəninin vətənpərvəri olmalı və hər an vətənini müdafiə etməyə hazır olmadır. Bütün bunlar onlarda ən yüksək keyfiyyətləri aşılayır.

Tədris prosesi zamanı hərbi-vətənpərvərlik tərbiyəsi əxlaqi, tarixi, siyasi və hüquqi, peşəkar fəaliyyətə əsaslanan psixoloji formalar böyük əhəmiyyət daşıyır. Eyni zamanda mənəvi, vətənpərvərlik tərbiyəsi və hərbi ənənələrə əsaslanan tərbiyə müxtəlif formalı və məzmunlu tədbirlərlə - milli bayramlara həsr olunmuş təntənəli yığıncaqlar, Vətən Müharibəsi veteranları ilə görüşlər, hərbi hissələrə ekskursiyalar və s. işlərlə həyata keçirilir. Bu təhsil alan gənclərdə yüksək məsuliyyət və nizam-intizamın inkişafına yol açır.

***Azər Rüstəmov, Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin direktoru.***

# Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində Zəfər Gününə həsr olunmuş tədbir




Gənclər hər bir xalqın sabahıdır və onların fəal, vətənpərvər və təşəbbüskar olması dövlətin inkişafına töhfə verir. Azərbaycanın gələcəyini təmin edən əsas qüvvə də məhz bu ruhda yetişdirilən gənclərdir. Vətən müharibəsi Azərbaycan tarixinin ən parlaq səhifələrindən biridir və gənc nəslin əsas vəzifəsi bu Qələbəni qorumaq və gələcək nəsillərə ötürməkdir.

“8 Noyabr - Zəfər Günü” münasibətilə Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzin mərkəz korpusu tərəfindən anım və qürur dolu tədbir keçirilib.

Tədbir zamanı qəhrəman şəhidlərimizin igidliyi bir daha ehtiramla yad olunub.Proqram çərçivəsində tələbələrin səhnə kompozisiyaları və rəqs nümunələri də təqdim olunub. Tədbirin sonunda fəallığı ilə seçilən tələbələr sertifikatla təltif olunublar. Bu tədbir gənclərin milli kimliyə bağlılığını, Vətən sevgisini və yaradıcı bacarıqlarını bir daha önə çıxardı.




***Şəkildə: Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzi tərəfindən keçirilən tədbirdn görüntülər.***



# Zəfər Gününə həsr olunmuş yürüş



"8 Noyabr - Zəfər Günü" münasibətilə Mərkəzin I korpusu tərəfindən Gəncə Memorial Kompleksinə yürüş təşkil olunub.

Tədbirin məqsədi Vətən müharibəsində qəhrəmanlıq göstərmiş şəhidlərimizin xatirəsini anmaq, gənclərdə vətənpərvərlik ruhunu daha da gücləndirmək olub.

Yürüş iştirakçıları şəhidlərin xatirəsini ehtiramla yad edib, Memorial Kompleksə gül dəstələri qoyublar.

“8 Noyabr - Zəfər Günü” münasibətilə Mərkəzin II korpusu tərəfindən tədbir təşkil olunub.

Tədbirdə çıxış edənlər Vətən uğrunda canından keçən qəhrəmanların xatirəsini dərin ehtiramla yad edib, xalqımıza bu qüruru yaşadan igidlərə minnətdarlıqlarını, Zəfərimizin əbədiliyini, şəhidlərimizin ölməzliyini, Azərbaycan Ordusunun və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəşadətini qürurla xatırladıqlarını ifadə ediblər.

Tədbir zamanı Geyim üzrə dizayner ixtisası üzrə təhsil alan tələbələr özlərinin hazırladıqları əl işlərini və dizayn nümunələrini nümayiş etdiriblər.




Daha sonra tələbələrin ifasında vətənpərvərlik ruhunda şeirlər, musiqilər və rəqs kompozisiyaları təqdim olunub, Zəfərin mənəvi gücü bir daha hiss olunub Tələbələrin ifasında səslənən vətənpərvərlik ruhunda şeirlər tədbirə xüsusi duyğu və ruh qatıb. Həmçinin Zəfər Gününə həsr olunmuş videoçarx izlənilib, şəhidlərimizin qəhrəmanlığı bir daha xatırlanıb.



***Şəkildə:Tədbir gənclərin milli-mənəvi dəyərlərə sadiqliyini və yaradıcılıq potensialını nümayiş etdirdi***




***Şəkildə: Mərkəzdə tarix müəllimi İbrahimova Yeganə tərəfindən keçirilən açıq dərsdən görüntü.***

Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində Zəfər Gününə həsr olunmuş açıq dərslər keçirilmişdir. "8 Noyabr - Zəfər Günü" münasibətilə Mərkəzdə tarix müəllimi İbrahimova Yeganə tərəfindən açıq dərs keçirilib.

Dərs zamanı Zəfər Gününün tarixi əhəmiyyəti, qəhrəman şəhidlərimizin və qazilərimizin göstərdiyi igidliklər, eləcə də bu möhtəşəm qələbənin gənc nəsil üçün mənəvi dəyəri haqqında ətraflı söhbət aparılıb.

Dərs gənclərin milli ruhda tərbiyəsində və vətənpərvərlik hisslərinin möhkəmləndirilməsində mühüm əhəmiyyət daşıyıb.

## *Mündəricat*

Azərbaycan Xalqı tarixi Qələbəsini öz müdrik rəhbərinin başçılığı ilə qazandı..........3
8 Noyabr - Zəfər Günü..........8
Yenilməz qələbə əzmi və tarixi qələbə..........12
Şəhid ailələrinə və qazilərə qayğı dövlət siyasətinin prioritetidir..........21
Gəncədə şəhid ailələri və qazilər daim diqqət mərkəzindədir..........27
Qəhrəman oğullar xalqımızın qəlbində həmişə yaşayacaqdır..........31
Veteranlar və gənc nəsil..........34
Zəfər Günü Rəşadət və Ədalət bayramıdır..........37
Gəncədə 8 Noyabr - Zəfər Gününün beş illiyinə həsr olunmuş tədbir keçirilib..........40
Gəncədə 8 Noyabr - Zəfər Gününün beş illiyinə həsr olunmuş dəyirmi masa təşkil olunub..........43
Gəncədə Zəfər Gününə həsr olunmuş ağacəkmə aksiyası təşkil olunub..........46
Kəpəz bələdiyyəsi Zəfər Günündə..........48
Gəncədə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş möhtəşəm konsert proqramı keçirilib..........53
Gəncə Şəhər İcra Hakimiyyətinin, YAP Gəncə şəhər təşkilatının və GDU-nun 8 Noyabr - Zəfər Günü münasibətilə keçirtdiyi tədbir..........57

Gəncə Dövlət Universitetində 8 noyabr Zəfər Gününə həsr edilmiş tədbir təşkil edildi..........................................................................58
İqtisadiyyat-İdarəetmə Fakültəsində Zəfər Günü..............................................................................63
Vətənpərvərlik öz ölkəsinə dəstək olmaq deməkdir......................................................................65
Qürur günümüz – 8 Noyabr Zəfər Günü..............................................................................68
8 Noyabr - Zəfər Günümüz mübarək!.......................................................................70
ADAU-da Zəfər Gününə həsr olunan tədbir keçirilib.........................................................................72
Azərbaycan Texnologiya Universitetində Zəfər Gününə həsr edilmiş konfrans.......................................................................74
Bitki Mühafizə və Texniki Bitkilər ETİ-də Zəfər Gününün 5 illiyi qeyd olunub............................................................................76
Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin təhsil müəssisələrində 8 Noyabr - Zəfər Gününün 5-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirilib.........................................................................78
ETİHİ Gəncə şəhər Komitəsinin təşkilatşılığı ııə 8 Noyabr - Zəfər Günü münasibətilə silsilə tədbirlər keçirib............................................................................82
Onların qəhrəmanlığı xalqımızın qəlbində daim yaşayacaq!....................................................................83
Gəncə İdman Liseyində “8 Noyabr - Zəfər Günü”nə həsr olunmuş tədbir.................................................................86

Vətənpərvərlik tərbiyəsi həmişə tələb olunur..........................................................................88
"Təhsil" RİM PHŞ Gəncə şəhər 1 nömrəli UGİŞM-də Zəfər Günü..........................................................................92
Cəmiyyət bu tərbiyəyə daha çox üstünlük verməlidir..........................................................................94
Mehdi Mehdizadə adına 4 nömrəli xarici dil təmayüllü məktəb-liseydə Zəfər Günü..........................................................................98
Yeniyetmə və gənclərimizin vətənpərvərlik tərbiyəsi..........................................................................102
Zəfər Gününə həsr olunmuş möhtəşəm tədbir..........................................................................106
Gəncə şəhəri 24 nömrəli tam orta məktəbdə Zəfər Günü..........................................................................108
"Müzəffər xalq, Qalib dövlət" adlı ədəbi-bədii kompozisiya və sərgi..........................................................................111
"44 günə fəth olunan Zəfər Zirvəsi" ədəbi-bədii gecə..........................................................................113
Gəncə şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbində "Zəfər yazan tariximiz" adlı tədbir..........................................................................115
Gəncə şəhər 3 nömrəli Uşaq Musiqi Məktəbində Zəfər Günü..........................................................................117
Gəncə şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbində Zəfər Günü..........................................................................118
Gəncədə "Zəfər övladlarının mədəniyyətdə bir günü" adlı tədbir keçirilib..........................................................................120
Vətənə məhəbbət ən mühüm ali hissdir..........................................................................123

Samux rayon Sərkar kənd Uşaq Musiqi Məktəbi və Qarayeri Qəsəbə Uşaq Musiqi məktəbində "Qarabağ Azərbaycandır" adlıtədbir..........................................................................127
Qəhrəmanlarımızın adı yaşadılmalı, onlar gənc nəsillərə daha yaxından
tanıdılmalıdır........................................................................130
Qarabağ Qaziləri İctimai Birliyinin Gəncə filialında kitab təqdimatı keçirilib...............................................................134
Zəfər Günü - Milli və Dini Həmrəyliyin Təntənəsi!..........................................................................136
Qarabağ qaziləri Zəfər Gününün 5 illiyini qeyd ediblər..........................................................................138
Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində “Zəfər Günü” təntənə ilə qeyd olunub..........................................................................140
Vətənpərvərlik tərbiyəsi vətəndaşların mənəvi inkişafının zəruri şərti kimi..................................................................146
Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində Zəfər Gününə həsr olunmuş tədbir..........................................................................149
Zəfər Gününə həsr olunmuş yürüş..........................................................................151